

**Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**

Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

30 Sentyabr 2021-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**Bakı Dövlət Universitetinin zəfər ovqatlı 102-ci ildönümü** ➔Səh.4-5

**BDU ilə Özbəkistanın Səmərqənd Dövlət Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb** ➔Səh.6

**Yolumuz Şuşayadır... - Ələmdar Cabbarlının Şuşa təəssüratı** ➔Səh.7

**BDU tələbələrinin şəhid anaları ilə görüşü keçirilib** ➔Səh.8

**"Tariximizin ən parlaq səhifəsi" mövzusunda dəyirmi masa keçirilib** ➔Səh.9

**Dünya şöhrətli alim Lütfi Zadənin anım günü** ➔Səh.10

**15 Sentyabr - Bilik Günüdür** ➔Səh.11

**15 sentyabr – Bakının erməni işğalından azad edilməsi günüdür** ➔Səh.11



**Akademik Rəfiqə xanım Əliyevanın anadan olmasının 89-cu ildönümüdür**

➔Səh.2



**Mir Cəlal Paşayevin anım günüdür**

➔Səh.2



**BDU Pakistanın Lahor Universiteti ilə əməkdaşlığa başladı**

➔Səh.6



**BDU-nun bir qrup kollektivi Vətən Müharibəsi şəhidlərinin məzarını ziyarət ediblər**

➔Səh.8




**BDU-nun EcoPrint layihəsi Kopenhagendə keçiriləcək Böyük Finalda Azərbaycanı təmsil edəcək**

➔Səh.15



## 44 GÜNLÜK ZƏFƏR EPOPEYASI

***Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi XX yüzilliyin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olub, onun nəticələri milyonlarla azərbaycanlının taleyinə ciddi təsir göstərib. Ermənistanın Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları və etnik zəmində təxribatları, terror əməlləri ilə başlamış bu münaqişə Azərbaycana qarşı hərbi təcavüzlə nəticələnib, əzəli Azərbaycan torpaqları işğal olunub. Qərbi Azərbaycanda yaşayan azərbaycanlılar öz tarixi torpaqlarından amansızcasına deportasiya olunub. Yüz minlərlə azərbaycanlı öz doğma torpaqlarından qaçqın düşüb. Bir milyondan artıq yurddaşımız öz yurdlarından didərgin salınıb.***

30 ilə yaxın bir dövrdə Ermənistan öz təcavüzkar siyasətindən əl çəkmədi. Beynəlxalq təşkilatların çağırışlarına, Azərbaycan dövlətinin münaqişənin sülh yolu ilə tənzimlənməsi, danışıqlarla həll olunmasına çağırışlarına məhəl qoymadı. Azərbaycan daim öz torpaqlarının ilhaqı ilə barışmayacağını bəyan etsə də, Ermənistan dövlətini işğal etdiyi əraziləri qeyd-şərtsiz tərk etməyə çağırsa da, düşmən öz məkrli niyyətindən əl çəkmədi. 30 ilə yaxın bir dövrdə işğal altında olan əzəli torpaqlarımızı viran qoyan mənfur düşmən maddi-mədəniyyət, tarixi abidələrimizi, müqəddəs ocaqları, məscidləri, mədəniyyət obyektlərini, şəhər, qəsəbə və kəndlərimizi dağıtdı. Viran qoyduğu torpaqlarda güclü mühəndis-istehkam qurğuları tikdi. Ermənistan hakimiyyətinin davranışları münaqişənin sülh yolu ilə həllini mümkünsüz etdi, danışıqlar heç bir nəticə vermədi.

Aprel döyüşlərindən dərs çıxarmayan düşmən növbəti təxribatlara əl atdı. Son dövrlər düşmənin təxribatları müntəzəm xarakter aldı.

2020-ci il 27 sentyabr tarixində səhər saatlarında Ermənistan Silahlı Qüvvələri növbəti genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutdu. Ermənistan ordusunun hücumlarının qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusu qısa müddət ərzində düşmənin mövqelərini darmadağın etdi. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev dəfələrlə düşməni işğal etdiyi torpaqları tərk etməyə, təxribatlara son qoymağa çağırsa da, Ermənistan öz təcavüzünü davam etdirdi. İldırım sürətli əks hücum əməliyyatı Vətən Müharibəsinə çevrildi.

Azərbaycan xalqı Vətən Müharibəsində misilsiz həmrəylik nümayiş etdirdi. Xalq-iqtidar-ordu birliyi möhtəşəm qələbənin təminatçısı oldu. Azərbaycan xalqı öz Ali Baş Komandanının, öz ordusunun ətrafında yumruq kimi birləşdi. "Dəmir yumruq" adlandırılan əməliyyatla rəşadətli ordumuz günbəgün öz dədə-baba torpaqlarımızı mənfur düşməndən azad etməyə başladı. Xalq-iqtidar-ordu birliyinin sayəsində parlaq Qələbə qazanıldı.

*(Ardı 3-cü səhifədə)*




*"Vətən Müharibəsi Şəhidlərinin Anım Günü" münasibətilə ağacəkmə aksiyası*

# Mir Cəlal Paşayevin anım günü



## Böyük pedaqoq, alim və istedadlı yazıçı Mir Cəlal Paşayevin vəfatından 43 il ötür

***28** sentyabr görkəmli alim, yazıçı və pedaqoq, XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafında misilsiz xidmətlər göstərmiş Mir Cəlal Paşayevin anım günüdür. Mir Cəlal Paşayev 1908-ci il aprelin 26-da Ərdəbildə yoxsul kəndli ailəsində dünyaya göz açıb. Kiçik yaşlarında atası Gəncəyə köçdüyündən uşaqlığını burada keçib. 1918-ci ildə atasının vəfat etməsi səbəbindən böyük qardaşının himayəsində yaşayıb.*

Mir Cəlal Paşayev Kazan Şərq Pedaqoji İnstitutunun ədəbiyyat şöbəsində, Azərbaycan SSR Elmlər Akademiyasının aspiranturasında təhsilini davam etdirməklə yanaşı, müəllimlik etmiş və millətinin övladlarına xalqının ədəbiyyatını, mədəniyyətini, zəngin keçmişini mənimsətmişdir. Bu mənada Mir Cəlal Paşayevin XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafındakı xidmətləri misilsizdir.

Yazıçı kimi 1928-ci ildə ədəbiyyata gələn Mir Cəlal Paşayev elə həmin ildə də ilk tədqiqat əsərini yazıb. "Bir gəncin manifesti" əsəri, zəmanənin güzgüsü olan hekayələri klassik bədii nümunələr kimi əbədiyaşarlıq qazandırıb. Gərgin zəhmətinin bəhrəsi olan “Füzuli sənətkarlığı”, “XX əsr Azərbaycan ədəbiyyatı”, “Azərbaycanda ədəbi məktəblər (1905-1917)”, “Ədəbiyyatşünaslığın əsasları” adlı fundamental əsərləri ədəbiyyatşünaslıq elminin önəmli nümunələrindəndir.

Mir Cəlal Paşayev 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" əsərinə görə filologiya elmləri namizədi, 1947-ci ildə isə "Azərbaycanda ədəbi məktəblər" əsərinə görə filologiya elmləri doktoru alimlik dərəcələrini alıb. Füzuli poeziyasının qüdrətinə heyran olan, ümumiyyətlə, klassik ədəbiyyata qəlbən bağlı Mir Cəlal Paşayev 1958-ci ildə bu mövzuya yenidən müraciət edərək “Füzuli sənətkarlığı” adlı monoqrafiyasını nəşr etdirib. XX əsrin 20-30-cu illərində şeir, oçerk və hekayələri ilə tanınan Mir Cəlal, əlli illik yaradıcılıq fəaliyyəti dövründə görkəmli nasir kimi Azərbaycan ədəbiyyatı tarixində öz layiqli yerini tutub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən, 2008-ci ildə yazıçı Mir Cəlal Paşayevin yubiley mərasimi təntənə ilə qeyd edilib. Parisdə, YUNESKO-nun iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilib. 2017-ci ildə Mir Cəlal Paşayevin İçərişəhərdə yaşadığı binada “Ədibin evi” açılıb.

Ali təhsilin flaqmanı sayılan Bakı Dövlət Universitetinin sevimli müəllimi, nüfuzlu professoru olaraq millətinin övladlarına xalqının ədəbiyyatını, mədəniyyətini, zəngin keçmişini öyrədən şəxsiyyət kimi xatirələrdə daim yaşayacaq. “Həyatımda yaratdığım ən böyük əsər ailəmdir” kəlamı indi də dillər əzbəri olan Mir Cəlal Paşayevin əsərləri bir çox xarici dillərə tərcümə edilib, əsərləri müxtəlif ölkələrin oxucularında sonsuz maraq doğurub.

# ICESCO-nun Elm və Texnologiyalar sektorunun müşaviri BDU-da müzakirələr aparıb

***S**entyabrın 14-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Elm və Texnologiyalar sektorunun müşaviri Dr.Məhəmməd Şərif arasında BDU-da keçirilmiş görüşdə mövcud əməkdaşlıq və perspektivlər müzakirə olunub, ICESCO-nun Azərbaycanla əməkdaşlığı çərçivəsində görüləcək işlərdə Bakı Dövlət Universitetinin yaxından iştirakı imkanlarına toxunulub.*

Azərbaycanın ICESCO ilə yaxından əməkdaşlıq edən və bu əlaqələrə böyük önəm verən əsas üzv dövlətlərdən biri olduğunu diqqətə çatdıran rektor Elçin Babayev bildirib ki, bu nüfuzlu beynəlxalq təşkilatın digər üzv ölkələrlə təhsil, elm və mədəniyyət sahələrində qarşılıqlı əməkdaşlıq üçün geniş imkanlar var. Bu əməkdaşlıq əlaqələri BDU-nun da elm və təhsil sahəsindəki uğurlarının artmasına yeni yol aça bilər.

Rektor Elçin Babayev qeyd edib ki, 29 sentyabr 2020-ci il tarixində ICESCO irs, mədəniyyət və təhsil ilə əlaqəli bir qurum olaraq Azərbaycan və Ermənistan arasındakı münaqişə ətrafında cərəyan edən son hadisələrdən, əhəmiyyətli sivil dəyərə malik arxeoloji və tarixi məkanların, o cümlədən bir sıra məscidlərin və müqəddəs tarixi yerlərə qarşı dağıntıların törədilməsindən narahatlığını bildirən bəyanatla çıxış etmişdir. Bu bəyanat ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir. 13 yanvar 2021-ci il tarixində isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Malikin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Görüş zamanı Prezident sıx əməkdaşlığa, daimi dəstəyə xüsusilə müharibə zamanı qəbul edilmiş qərarlara görə Baş direktora təşəkkürünü bildirib.

ICESCO ilə əlaqələrin inkişafının keyfiyyətcə yeni mərhələyə qədəm qoymasında və canlanmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın misilsiz xidmətlərindən danışan rektor Elçin Babayev, onun sivilizasiyalar arası dialoq daxil olmaqla, müxtəlif sahələrdə geniş miqyaslı və fədakar fəaliyyəti, qayğıya ehtiyacı olan uşaqlara diqqəti, onların yaşayış şəraitinin yaxşılaşdırılması, təhsil və elm sahələrində, həmçinin İslam Dünyasında görülən işlərə böyük dəstəyi barədə qonağa məlumat verib.

ICESCO-nun Elm və Texnologiyalar sektorunun müşaviri Dr.Məhəmməd Şərif isə öz növbəsində Bakı Dövlət Universitetində qonaq olmaqdan məmnunluğunu bildirərək təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə əminliyini ifadə edib. Qonaq ICESCO qarşısında duran vəzifələrdən birinin də İslam aləmində elmin, təhsilin, zəngin mədəni irsin qorunmasını təmin etməkdən ibarət olduğunu diqqətə çatdırıb. Bu baxımdan, təmsil etdiyi təşkilatın Azərbaycanla bağlı son illərdəki fəaliyyətini yüksək dəyərləndirən M. Şərif Azərbaycan-Ermənistan münaqişəsinə toxunaraq bildirib ki, adıçəkilən bəyanat ICESCO-nun Azərbaycana olan dəstəyinin təzahürüdür.

Son illər yeni müstəvidə inkişaf etməkdə olan Azərbaycan-ICESCO əməkdaşlığı çərçivəsində gələcəkdə də ölkəmizdə bir sıra tədbirlərin keçirilməsinin nəzərdə tutulduğunu diqqətə çatdıran qonaq qeyd edib ki, təmsil etdiyi təşkilat bu mühüm təşəbbüsün yüksək səviyyədə həyata keçirilməsi üçün lazım olan bütün işləri görəcəkdir. Artıq bir çox sahələrdə BDU ilə əlaqələrin yaradıldığını vurğulayan Məhəmməd Şərif münasibətlərin genişlənməsində qarşılıqlı müzakirələrin önəmini də qeyd edib.

Qonaq gələn ay baş tutacaq “Cihazqayırma və Tərsinə Mühəndisliyin əsasları üzrə 1-ci ICESCO seminarı” adlı beynəlxalq tədbirin yüksək səviyyədə təşkilinə görə Universitetə minnətdarlığını ifadə edib.

Görüşdə Azərbaycanla ICESCO arasında elm, təhsil və mədəniyyət sahələrində həyata keçirilən digər layihələr və bu layihələrdə Bakı Dövlət Universitetinin iştirakı və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Akademik Rəfiqə xanım Əliyevanın anadan olmasının 89-cu ildönümüdür



***20** sentyabr Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) həqiqi üzvü, kimya elmləri doktoru, professor, əməkdar elm xadimi Rəfiqə xanım Əliyevanın anadan olmasının 89-cu ildönümüdür.*

Rəfiqə Əliyeva 1932-ci il sentyabrın 20-də Naxçıvan şəhərində anadan olub. Ali təhsilini 1951-1956-cı illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) kimya fakültəsində alıb.

Əmək fəaliyyətinə 1956-cı ildə Azərbaycan Politexnik İnstitutunda başlayan Rəfiqə Əliyeva 1957-ci ildən etibarən Azərbaycan Dövlət Universitetində, 1958-1960-cı illərdə isə Azərbaycan Elmlər Akademiyasının Kimya Problemləri İnstitutunda kiçik elmi işçi kimi fəaliyyət göstərmişdir. 1960-1963-cü illərdə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinin aspiranturasında təhsil alan Rəfiqə Əliyeva 1964-cü ildən ömrünün sonuna qədər Universitetin Analitik kimya kafedrasında işləmiş və burada assistent, baş müəllim, dosent, professor vəzifələrində çalışmış, 2001-ci ildən “Ekoloji kimya və ətraf mühitin mühafizəsi” elmi-tədqiqat laboratoriyasına rəhbərlik etmişdir.

Rəfiqə Əliyeva 1970-ci ildə namizədlik, 1999-cu ildə doktorluq dissertasiyalarını müdafiə etmiş və həmin il də professor adına layiq görülmüşdür. 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilmişdir. O, Azərbaycanın elm tarixində analitik kimya ixtisası üzrə ilk və yeganə akademikdir.

Ömrünü kimya elminə həsr etmiş Rəfiqə Əliyeva bu sahədə yüksəkixtisaslı kadrların hazırlanmasına bütün bilik və bacarığını sərf etmişdir. Yarım əsrdən artıq pedaqoji fəaliyyətlə məşğul olan alimin araşdırmaları analitik reaksiyaları xarakterizə edən parametrlərlə kompleks birləşmələrin quruluşu arasındakı asılılığın müəyyən edilməsinə həsr olunub. Rəfiqə xanımın ətraf mühitin mühafizəsi ilə bilavasitə bağlı olan bir sıra tədqiqatları, eyni zamanda, üzvi reaktivlərin köməyi ilə metalların təyini və onların ayrılması metodikasının işlənib hazırlanmasına yönəlib. Ekologiyanın aktual problemləri ilə bağlı işləri isə ölkəmizin davamlı inkişafının təmin olunmasına öz töhfəsini verib.

450-dən artıq elmi əsərin, 25 dərslik və dərs vəsaitinin, 20 patentin müəllifi olan Rəfiqə Əliyeva bir sıra elmi şuraların və cəmiyyətlərin üzvü olmuşdur. Alimin rəhbərliyi altında 20-dən çox fəlsəfə və elmlər doktoru yetişmişdir.

Tanınmış kimyaçı alim Rəfiqə Əliyevanın məhsuldar elmi-pedaqoji fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikasının ali mükafatı - “Şöhrət” ordeni ilə təltif edilmişdir.

Akademik Y.Məmmədəliyev adına mükafatın laureatı olan Rəfiqə Əliyeva Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, Amerika Biblioqrafiya İnstitutu tərəfindən “2001-ci ilin adamı” və “2001-ci ilin işgüzar qadını” seçilib. 2005-ci ildə Bakı Dövlət Universitetinin təsis etdiyi “İlin alimi” fəxri adına layiq görülüb. Onun ekologiyaya və ümumi ekologiyaya aid dərs vəsaitləri isə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Həsən Əliyev adına mükafatı ilə qiymətləndirilib.

2018-ci ildə “Azərbaycanım” beynəlxalq jurnalının redaksiya şurası “Akademik Rəfiqə Əliyeva adına Qızıl Orden” təsis edib.

Görkəmli alim, akademik Rəfiqə Əlirza qızı Əliyeva onu tanıyanların yaddaşında əsl Azərbaycan qadını, elm fədaisi və səmimi, mehriban insan kimi yaşayır, işıqlı xatirəsi daim ehtiramla anılır.

# 44 GÜNLÜK ZƏFƏR EPOPEYASI

*(Əvvəli 1-si səhifədə)*

***Cəsur Azərbaycan hərbiçiləri təcavüzkarın işğal altındakı ərazilərimizdə 30 ilə yaxın qurduqları istehkamları, müdafiə qurğularını, hərbi texnikaları və çoxlu sayda canlı qüvvələrini 44 gündə darmadağın etdi.***

Müharibənin gedişində çoxsaylı ölkələr və Birləşmiş Millətlər Təşkilatı hərbi əməliyyatları dayandırmağa, hər iki tərəfi gərginliyi azaltmağa və danışıqları təxirə salmadan davam etdirməyə çağırsalar da, mənfur düşmən öz məkrli niyyətindən əl çəkmədi. Bir çox ölkələr, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün apardığı haqq mübarizəsini dəstəklədiklərini bəyan etdilər. Müharibənin gedişində bir neçə dəfə əldə olunan humanitar atəşkəs Ermənistan Silahlı Qüvvələrinin mülki vətəndaşları hədəfə alan terror aktları, növbəti təcavüzləri nəticəsində yenidən pozuldu.

44 günlük müharibə nəticəsində Azərbaycan BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin icrasını özü həyata keçirdi. Ermənistan üzərinə düşən beynəlxalq öhdəlikləri sülh yolu ilə yerinə yetirmək istəməsə də, Azərbaycan onu sülhə məcbur etdi və 30 il işğal altında qalmış əraziləri hərbi yolla azad etdi.



Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. 2020-ci il noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzaladılar. Bəyanata uyğun olaraq, noyabrın 20-də Ağdam rayonu Azərbaycana təhvil verildi. Bununla da Ağdam işğaldan azad olundu. Üçtərəfli bəyanata əsasən, noyabrın 25-də Kəlbəcər rayonu, dekabrın 1-də isə Laçın rayonu Azərbaycana təhvil verildi. Bununla da üçtərəfli bəyanata uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşdı.

27 sentyabr 2020-ci ildə düşmənin növbəti təxribatına qarşı əks-hücum əməliyyatı ilə başlayan və noyabrın 10-da düşmənin kapitulyasiya aktına imza atması ilə nəticələnən ikinci Qarabağ müharibəsində ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan ordusu xalqımızın zəfər səlnaməsini yazdı, tariximizdə yeni bir şanlı qəhrəmanlıq səhifəsi açdı. Doğma torpaqlarımızda, müqəddəs Şuşada şanlı bayrağımız qürurla və əbədi dalğalandırıldı.

BMT Təhlükəsizlik Şurasının işğalçı Ermənistan qoşunlarının torpaqlarımızdan tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələri şanlı ordumuzun qələbəsi ilə icra edildi, doğma torpaqlarının həsrətini çəkən, qayıdacaqları günü səbirsizliklə gözləyən insanlarımızın arzuları reallığa çevrildi.

44 günlük Vətən Müharibəsində yüzlərlə əsgərimiz vətənin azadlığı naminə bir an belə tərəddüd etmədən öz həyatını qurban verdi. Onlar bu gün fəxr etdiyimiz və bütün gələcək nəsillərin fəxr edəcəyi qələbə tariximizi öz qanları ilə yazdılar. İkinci Qarabağ müharibəsində cəsur əsgər və zabitlərimiz, müqəddəs şəhidlərimiz döyüş meydanında göstərdikləri fədakarlıq və qəhrəmanlıqları ilə öz adlarını xalqımızın qan yaddaşına qızıl hərflərlə həkk etdilər.

Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamı ilə “27 sentyabr - Anım Günü” və “8 noyabr - Zəfər Günü” təsis edilmişdir. Eyni zamanda, ölkə başçısı Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda döyüşlərdə yaralananların və şəhid ailələrinin təminatına dəstək üçün “YAŞAT” Fondunun yaradılması haqqında Fərman imzalamışdır. Cənab Prezident Azərbaycan xalqının Vətən Müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində “Vətən Müharibəsi memorial kompleksi” və “Zəfər muzeyi”nin yaradılması haqqında sərəncam imzalamışdır.

Canlarını Azərbaycan Respublikasının ərazi bütövlüyü yolunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi dekabrın 4-də saat 12:00-da bir dəqiqəlik sükutla yad edildi.

Xalqımız hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, daim şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur.

***İbrahim Zeynalov***
*Bakı Dövlət Universitetinin professoru*

# BDU – məşhur “Times Higher Education” reytinq siyahısına düşən ilk Azərbaycan universitetidir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 16 noyabr 2018-ci il tarixli 711 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” ali təhsil müəssisələrimizin müasir elmi-tədqiqat və innovasiya mərkəzlərinə çevrilməsi prosesinin sürətlənməsində və onların dünya reytinqində irəliləməsində, habelə ölkəmizin inkişaf konsepsiyasında xüsusi istiqamət kimi seçilən yeni nəsil mütəxəssislərin və rəqabətədavamlı insan kapitalının yetişdirilməsində müstəsna rol oynayır. Bu baxımdan, ali təhsil müəssisələrimizin beynəlxalq reytinqlərdəki mövqelərinin yaxşılaşması prioritet məsələlərdən hesab olunur.***

**Ölkəmizdə elm və təhsilin inkişafında, yeni nəsil yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanmasında ən aparıcı rol oynayan 102 yaşlı Bakı Dövlət Universiteti elm və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi, beynəlxalq reytinq siyahılarında mövqeyinin yüksəldilməsi və tədqiqat universitetinə çevrilməsi istiqamətində yüksək nəticələr əldə edir.**

Son illər BDU-da aparılan islahatlar, idarəetmə və elmi tədqiqatlarda tətbiq edilən yeni yanaşma və metodlar, tədris prosesində müasir təlim texnologiyalarından istifadə, elmi fəaliyyətə, təhsilə, beynəlmiləlləşməyə, müəllim və tələbələrin ictimai fəallığına xüsusi diqqət öz nəticələrini göstərməkdədir. Tədrisdə məşhur BLACKBOARD elektron sisteminin tətbiqi, elmi prioritetlərin yenidən müəyyənləşdirilməsi və sənayeyönümlü elmi-tədqiqat işlərinin genişləndirilməsi, dünyanın və ölkəmizin aparıcı elmi-tədqiqat və istehsalat müəssisələri ilə birgə layihələrin həyata keçirilməsi, dünyanın nüfuzlu universitetləri ilə birgə ikili diplomlar üzrə kadr hazırlığı və digər bu kimi tədbirlər BDU-da elm və təhsilin inkişafı, yeni nəsil kadrların hazırlanması üçün əlverişli şərait yaratmışdır. Bütün bunların nəticəsidir ki, 2021-ci ildə Azərbaycan universitetləri arasında ilk dəfə olaraq Bakı Dövlət Universiteti Britaniyanın Times Higher Education (THE) jurnalı tərəfindən tərtib olunan və dünyanın ən nüfuzlu reytinqlərindən hesab olunan Dünya Universitetləri Reytinqində (THE World University Ranking) yer alıb. BDU dünyanın siyahıya düşən 1662 universiteti arasında reytinq sıralamasında 1201+, beynəlxalq reputasiyasına görə isə 864+ yerdə qərarlaşıb.

Bu, Azərbaycan ali təhsil tarixində bir ilkdir. Nəticələr 5 sahədən olan 13 effektivlik göstəricisi əsasında formalaşdırılıb, universitetlərin yeni biliklərin yayılmasındakı rolunu qiymətləndirmək üçün son 5 ilin 14.4 milyon tədqiqat nəşri üzrə 108 milyon istinadın təhlili və dünya üzrə 22.000 mütəxəssis arasında keçirilmiş sorğunun nəticələrindən istifadə edilib. Qeyd olunmalıdır ki, bu nüfuzlu siyahıda Oksford Universiteti, Kaliforniya Texnologiya İnstitutu və Harvard Universiteti ön sıralardadır. Siyahıda yer alan universitetlər 99 ölkə və ya regionu təmsil edir.

***Qeyd edək ki, 2010-cu ildən başlayaraq Dünya Universitetləri Reytinqini tərtib edən Times Higher Education jurnalının siyahısı rəsmi olaraq qəbul edilən 4 nüfuzlu reytinq siyahısından biridir*** (THE, MosIUR, QS, ARWU). Reytinq siyahısının tərtib olunmasında 5 kateqoriya üzrə göstəricilərdən istifadə edilir: tədris fəaliyyəti (Teaching) – 5 göstərici, istinad (Citation) – 1 göstərici, elmi-tədqiqat fəaliyyəti (Research) 3 göstərici, sənayedən gələn gəlir (Industry Income) – 1 göstərici və ali təhsil müəssisəsinin (ATM) beynəlmiləlləşmə səviyyəsi (International Outlook) – 3 göstərici. Reytinq siyahısının tərtibi zamanı ATM üzrə statistik məlumatlar, SCOPUS biblioqrafik verilənlər bazasında dərc olunma və istinad olunma aktivliyi öyrənilir və akademik ekspertlərin rəyi nəzərə alınır.

***Ümumiyyətlə, THE reytinqinin müəyyən etdiyi aşağıdakı əsas meyarlara cavab verməyən ATM-lər THE-nin tərtib etdiyi Dünya Universitetləri Reytinq siyahısına daxil edilmir:***

1) Son 5 il ərzində beynəlxalq bazalarda (Web of Science, SCOPUS) indekslənən 1000-dən az məqalə nəşr etdirən ATM.

BDU-da 81 istiqamətdə 180 mövzu üzrə 1037 elmi-tədqiqat işi yerinə yetirilir. 2016-2020-ci illər ərzində BDU tərəfindən Web of Science bazasına daxil olan dərgilərdə 1596 və SCPOUS bazasında isə 1321 məqalə dərc edilmişdir. Dərc olunmuş məqalələrə 17000-ə yaxın istinad edilmişdir. BDU-nun h-indeksi 47-dir. Bu göstəricilərlə BDU Azərbaycan universitetləri arasında liderdir.

2) Bakalavr təhsil proqramları əsasında təhsil verməyən ATM.

Hazırda BDU-da təbiət, humanitar və sosial elmlər sahələrinin müxtəlif istiqamətlərində 80 ixtisas üzrə bakalavr və 224 ixtisaslaşma üzrə magistr hazırlığı həyata keçirilir. 5 ixtisaslaşma üzrə təhsil proqramları beynəlxalq akkreditasiyadan keçmişdir. Dünya təhsil və elm sferasına sürətlə inteqrasiya edən BDU-da 10-a yaxın yeni ixtisas (və ya ixtisaslaşma) üzrə kadr hazırlığına başlanılmışdır.

3) Fəaliyyətinin 80 faizi və ya daha çoxu THE tərəfindən müəyyən edilmiş 11 mövzu kateqoriyalarından yalnız birini əhatə edən ATM.

*Azərbaycan universitetlərinin flaqmanı olan BDU-da THE-nin müəyyən etdiyi mövzu kateqoriyaları – humanitar elmlər, kompüter elmləri, mühəndislik, sosial elmlər, həyat elmləri, fizika elmləri, biznes və iqtisadiyyat, hüquq və psixologiya üzrə mütəxəssis hazırlığı həyata keçirilir. BDU dünyanın 7 nüfuzlu ATM ilə ikili diplom proqramları əsasında əmək bazarının tələblərinə uyğun mütəxəssis hazırlayır.*

Qeyd edək ki, Bakı Dövlət Universitetinin dünyanın ən nüfuzlu reytinqlərindən hesab olunan Dünya Universitetləri Reytinqində (THE World University Ranking) yer alması son illər ali təhsil müəssisəsində aparılan yenidənqurmanın nəticəsidir. Bakı Dövlət Universitetinin çoxminli kollektivinin zəhmətinə əsaslanan bu islahatların məqsədi qısa müddət ərzində müasir tələblərə cavab verən yeni tipli elm və təhsil infrastrukturunu yaratmaq və davamlı olaraq təkmilləşdirmək və nəticədə dünya səviyyəli müxtəlif reytinq cədvəllərində daha da irəliləməkdir.

# Bakı Dövlət Universitetinin

***Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı adlandırdığı, hər zaman məzunu olması ilə fəxr etdiyini ifadə edərək yüksək dəyər verdiyi Bakı Dövlət Universitetinin yaradılmasından 102 il ötür.***

Müsəlman Şərqinin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti elmin, təhsilin inkişafına, əhalinin savadlanmasına böyük önəm verirdi. Bu məqsədlə parlamentdə dəfələrlə müzakirələr aparılmış, universitetin təsis edilməsi məqsədəmüvafiq hesab olunmuşdur. Uzun və gərgin müzakirələrdən sonra, nəhayət, Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti 1919-cu il sentyabrın 1-də "Bakı Universitetinin təsisi haqqında" qanun qəbul etdi. Beləliklə, 1919/1920-ci tədris ilindən universitet tarix-filologiya və tibb fakültələri ilə fəaliyyətə başladı. Cümhuriyyət Hökumətinin qərarına əsasən, universitetin ilk rektoru professor V.İ.Razumovski, tibb fakültəsinin dekanı professor İ.İ.Şirokoqorov, tarix-filologiya fakültəsinin dekanı isə dosent N.A.Dubrovski təyin olundu. 1919-cu il noyabrın 15-də Bakı Dövlət Universitetinin auditoriyalarında ilk mühazirələrin oxunması ilə Azərbaycanın birinci ali təhsil ocağı həyata vəsiqə qazandı.

Xalq Cümhuriyyəti dövründə çox qısa zaman müddətində fəaliyyət göstərsə də, Bakı Dövlət Universiteti xalqımızın maarifləməsinə, əhalinin savadlanmasına özünün töhfələrini vermiş, elm, təhsil yolumuzun sönməyən çırağını yandırmışdır. Sovet hakimiyyəti illərində də universitet tarixi missiyanı davam etdirmiş, ölkəmizdə elm və təhsilin əsas mərkəzi olmuşdur. Eyni zamanda, BDU həmin dövrdə Azərbaycan Elmlər Akademiyasının formalaşması və eləcə də respublikamızda sonradan yaradılan bir sıra digər ali məktəblər üçün baza rolunu oynamışdır.

Bakı Dövlət Universiteti sovet hakimiyyəti illərində bütün təzyiq və basqılara rəğmən Azərbaycanda milli ruhun daşıyıcısı missiyasını şərəflə yerinə yetirmiş, milli şüurun formalaşması prosesində fəal surətdə iştirak etmişdir. Təsadüfi deyil ki, ağır və məşəqqətli 30-cu illərdə universitetin fəaliyyəti məhz bu səbəbdən bir müddət dayandırılmışdır. Lakin milli ruhlu ziyalılarımızın fədakarlığı nəticəsində ölkənin ilk ali təhsil müəssisəsi qısa müddətdən sonra fəaliyyətini bərpa etmişdir.

Bakı Dövlət Universitetinin inkişafında yeni mərhələ 1969-cu ildən – ümummilli liderimiz Heydər Əliyevin ölkəyə rəhbərlik etməsindən sonra başlanmışdır. 1969-cu ilin 14 iyulunda Azərbaycanda hakimiyyətə gələn ulu öndər Heydər Əliyev ölkə həyatının bütün sahələri kimi, elmin və təhsilin də inkişafına böyük diqqət göstərmişdir.

Universitetin 50 illik yubileyində ulu öndər Heydər Əliyevin iştirakı və dövlət başçısı kimi Azərbaycan dilində çıxış etməsi həmin dövrdə olduğu kimi, bu gün də qədirbilən xalqımız tərəfindən cəsarətli addım və tarixi hadisə kimi yüksək qiymətləndirilir. Ümummilli liderimiz sonralar həmin hadisəni belə xatırlayırdı: "Xatirimdədir, universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, öz ana dilimdə, Azərbaycan dilində danışdım. Bu, böyük bir sensasiya kimi qəbul olundu. Nə cür olur ki, respublikanın rəhbəri Azərbaycan dilində çıxış edir. Bəziləri məni bu hadisə münasibətilə təbrik edirdilər, minnətdarlıqlarını bildirirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar, doğrudan da, bunu böyük bir hadisə kimi qəbul etdilər". Bu tarixi hadisənin, həmin dövrdə müdrik rəhbərin ali təhsil ocağına xüsusi diqqət və qayğısının və eləcə də himayəçiliyinin sayəsində universitet yenidən milli oyanışın mərkəzinə, müstəqilliyimizə gedən yolun carçısına çevrildi. Təsadüfi deyil ki, ötən əsrin sonlarında Azərbaycanda sovet imperiyasına qarşı azadlıq mübarizəsi məhz universitetdən başlandı.




Bakı Dövlət Universiteti Azərbaycanda elmin və təhsilin inkişafındakı rolunu, eyni zamanda, milli şüurun, vətənpərvərlik ruhunun formalaşması və inkişafındakı tarixi missiyasını müstəqillik illərində daha əzmlə davam etdirdi. Müstəqillik illərində də universitet hər zaman olduğu kimi, ulu öndərimiz Heydər Əliyevin diqqət və qayğısından kənarda qalmadı. Bu dövrdə müdrik rəhbərin səyləri nəticəsində universitetin elmi potensialı və maddi-texniki bazası günü-gündən gücləndi. Bu gün qürurla söyləyirik ki, ulu öndər Heydər Əliyev BDU-nun dünya şöhrətli məzunu olmaqla yanaşı, hər zaman bu ali təhsil müəssisəsinin xeyirxahı və hamisi olmuşdur.

Son 18 ildə ölkəmizə uğurla rəhbərlik edən ulu öndər Heydər Əliyevin ləyaqətli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyev Bakı Dövlət Universitetinin inkişafı, müasir dünya universitetləri siyahısında layiq olduğu şərəfli yeri tutması üçün hər cür diqqət və qayğı göstərmişdir. Ölkə başçısının 14 noyabr 2017-ci il tarixli "Bakı Dövlət Universiteti-nin 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamına əsasən, 2019-cu ildə universitetin 100 illik yubileyi ölkədə və xaricdə ən yüksək səviyyədə qeyd edilmişdir. Yubileyin keçirilməsi ilə bağlı imzalanmış tarixi sənəddə Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin şərəfli yol keçdiyini, universitetin ölkədə ali təhsil sisteminin qurulmasında, elmi tədqiqatların aparılmasında, ümumən milli özünüdərk prosesinin sürətləndirilməsindəki tarixi xidmətlərini xüsusi qeyd etmişdir.

Sərəncama uyğun olaraq BDU-nun 100 illik yubileyi Parisdə UNESCO-nun Baş qərargahında, Vyanada Azərbaycan Mədəniyyət Mərkəzində, Rumıniyada Qara Dəniz Universitetləri Assosiasiyasının təşkilatçılığı ilə Buxarest Universitetində yüksək səviyyədə qeyd edilmişdir. Yubiley ilində "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı təsis edilmiş, yubiley pul nişanı tədavülə buraxılmışdır. Universitetin 113 əməkdaşı ölkə başçısı tərəfindən ən yüksək orden, medal və fəxri adlara layiq görülmüşdür. Bütün bunlar Universitetin qədirbilən professor-müəllim heyətində ruh yüksəkliyi yaratmış, onları daha əzmlə, fədakarlıqla Azərbaycan elminin və təhsilinin inkişafına öz töhfələrini verməyə sövq etmişdir.

***100 illik yubiley mərasimində ölkə başçısının şəxsən iştirakı və proqram xarakterli çıxışı universitet kollektivinin qarşısında yeni hədəflər qoymuşdur. Möhtərəm Prezidentimiz yubiley mərasimindəki tarixi çıxışında BDU-nun ölkəmizin həyatındakı müstəsna rolunu xüsusi vurğulayaraq demişdir:*** "Azərbaycan Xalq Cümhuriyyəti süqut edəndən sonra Bakı Dövlət Universiteti yeni ictimai-siyasi dövrdə fəaliyyətini davam etdirirdi. Yüz il ərzində universitetin 200 minə yaxın məzunu Azərbaycanın müxtəlif sahələrində öz bilik və bacarıqlarını nümayiş etdirmişdir. Məzunlar arasından görkəmli şəxslər, alimlər, ictimai xadimlər, siyasətçilər, mütəxəssislər çıxmışdır. Onların bir çoxu Azərbaycanın hərtərəfli inkişafına öz dəyərli töhfəsini vermişdir. Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyev də Bakı Dövlət Universitetinin məzunu idi. Heydər Əliyev həm sovet dövründə, həm müstəqilliyin ərəfəsində, həm də müstəqillik dövründə xalq qarşısında, dövlət qarşısında misilsiz xidmətlər göstərmişdir." Bu gün universitet kollektivi həmin tarixi nitqin yaratdığı ovqatın əhval-ruhiyyəsində öz səmərəli fəaliyyətini davam etdirir, qarşıda duran hədəflərə çatmaq, ölkə başçısının etimadını ən yüksək səviyyədə doğrultmaq üçün səylər göstərir, beynəlxalq və milli əmək bazarı üçün rəqabətədavamlı, eyni zamanda, vətənpərvərlik ruhunda tərbiyə edilmiş yüksək ixtisaslı mütəxəssislər hazırlayır.

100 illik şərəfli yubileydən sonra Bakı Dövlət Universiteti hər zaman olduğu kimi, ölkə Prezidenti möhtərəm cənab İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yüksək qayğısı və hərtərəfli dəstəyi ilə öz inkişafının yeni mərhələsini yaşayır. Universitetdə dövrün tələblərinə uyğun islahatlar aparılır, şərəfli keçmişə, tarixi ənənələrə malik olan ali təhsil ocağının modern dünya universitetləri siyahısında daha ön yerləri tutması üçün məqsədyönlü fəaliyyət həyata keçirilir. Bu gün müəyyənləşdirilən və uğurla həyata keçirilməkdə olan "Universitet – 5.0" strategiyası inkişafımızın əsas qayəsini, təməl prinsiplərini təşkil edir. Strategiya – təhsil, elm, innovasiya, beynəlmiləlləşmə və sosiallaşma prinsiplərinin vəhdətindən ibarətdir.

102 il öncə 2 fakültə, 44 nəfər professor-müəllim heyəti və 1094 tələbə ilə fəaliyyətə başlayan universitetdə hazırda 16 fakültə, 121 kafedra, 3 elmi tədqiqat mərkəzi, 30-dan çox elmi tədqiqat və tədris laboratoriyası, Fizika Problemləri Elmi-Tədqiqat İnstitutu, Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutu, Konfutsi İnstitutu, İqtisadiyyat və Humanitar Kollec, Qazax filialı, "Gənc istedadlar" liseyi, 2 tədris-təcrübə bazası, 3 milyona yaxın kitab fondu olan böyük Elmi Kitabxana fəaliyyət göstərir.

*Universitetdə ali təhsilin bütün səviyyələrində 24 mindən çox tələbə təhsil alır, üç mindən çox əməkdaş, o cümlədən 1500 nəfərə qədər professor-müəllim heyəti və elmi işçi çalışır. Onlardan 17 nəfəri Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi və müxbir üzvü, 300 nəfərə qədəri elmlər doktoru, professor, 1000 nəfərə qədəri fəlsəfə doktoru, dosentdir.*

Hazırda universitetdə tarixi ənənələrin və modern dünya təcrübəsinin vəhdəti şəklində tədris müasir, innovativ təlim texnologiyaları əsasında qurulur, elmi-tədqiqat işlərinin məzmunu günün tələblərinə uyğun şəkildə yenilənir, ali təhsil müəssisəsinin beynəlxalq akademik əlaqələri və ölkədaxili əməkdaşlıq inkişaf etdirilir, paralel olaraq struktur islahatları həyata keçirilir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin gəncləşmə siyasətinə adekvat olaraq kadr islahatları aparılır, bacarıqlı və perspektivli gənclər önə çəkilir. Universitet əməkdaşlarının sosial vəziyyətinin yaxşılaşdırılması üçün mütəmadi olaraq əməli addımlar atılır.

Tələbələrin yüksək səviyyədə təhsil almaları, elmi-tədqiqat işlərinə cəlb olunmaları, eyni zamanda, asudə vaxtlarının səmərəli təşkili üçün ən müxtəlif innovativ üsul və metodlar tətbiq olunur. Universitet tələbələri müxtəlif platformalarda universitetin idarəçiliyinə cəlb olunurlar. BDU-da tələbə təşkilatlarının aktiv fəaliyyətləri üçün münasib şərait yaradılmışdır. Tələbələrin yataqxana şəraitinin yaxşılaşdırılması məqsədilə müasir tələblərə uyğun yeni yataqxana – 5 mərtəbəli, 220 yerlik "Tələbə evi" istifadəyə verilmişdir. Hazırda universitetin ən müasir tələblərə cavab verən Tələbə Şəhərciyinin yaradılması istiqamətində intensiv işlər gedir.

*Həmçinin tələbələrin keyfiyyətli, müasir dərslik və dərs vəsaitləri ilə təmin edilməsi üçün 2021-ci ildə universitetin mətbəəsi BP şirkətinin dəstəyi ilə ən müasir avadanlıqlarla təchiz edilərək yenidən qurulmuş və istifadəyə verilmişdir. BDU ərazisində "Kitab evi", "Xarici dil mərkəzi" də fəaliyyət göstərəcəkdir.*

Artıq universitetdə tədrisin keyfiyyətli təşkili, yeni təlim texnologiyalarının tətbiqi öz bəhrəsini verməkdədir. Xüsusilə son illər məzunlarımız müəllimlərin işə qəbulu (MİQ) imtahanlarında ən yüksək nəticələr göstərir, eyni zamanda, BDU tələbələri beynəlxalq, regional və yerli olimpiadalarda, bilik yarışmalarında ön yerləri tuturlar. Həmçinin BDU-nun onlarca məzunu son illər yüksək nəticələr əldə edərək xarici universitetlərə, o cümlədən, ABŞ-ın Boston, Kanadanın Alberta, Böyük Britaniyanın Kraliça Meri Universiteti, Cənubi Koreyanın Kyunqvoon Dövlət Universiteti, Çex Respublikasının Karlova, Cənubi Bohemia; İtaliyanın Boloniya, Sapienza, Venesiya, Turin, Litvanın Vilnüs Texnologiya Universiteti, Türkiyənin İstanbul, Kocaeli, Üsküdar universitetləri kimi dünyada müxtəlif ali təhsil müəssisələrinə daxil olmuşlar.

*Bakı Dövlət Universitetində tədris prosesinin daha səmərəli və innovativ üsullarla təşkili məqsədilə 2020/2021-ci tədris ilinin yay semestrindən etibarən "BLACKBOARD" – tədrisin idarə edilməsi sisteminin tətbiqinə başlanılmışdır.* Qeyd edək ki, bu sistemin tətbiqi üçün BDU 2021-ci ilin may ayından etibarən ABŞ-ın "Blackboard" şirkəti ilə əməkdaşlığa başlamış, nəhayət, universitetin potensialı nəzərə alınaraq bu barədə müsbət qərar qəbul edilmişdir. Bu sistemin əsas üstünlükləri kimi tələbələrin biliyinin sistem üzərindən qiymətləndirilməsini, dərslərin video yazılışının aparılmasını, eyni zamanda, mobil tətbiq vasitəsilə məlumatların daha rahat əldə edilməsi, davamlı olaraq tələbələrin və müəllimlərin fəallığının təhlil olunmasını və s. göstərmək olar.

Universitetdə elmi fəaliyyətin səmərəli təşkili məqsədilə müəyyənləşdirilən strateji xətt sayəsində son dövrlər aparılan elmi tədqiqat işlərinin məzmunu yenilənmiş, səviyyəsi artmış, alınan nəticələrin bilavasitə tətbiq sahələrinə yönəldilməsi sahəsində əvvəlki illərlə müqayisədə daha müsbət nəticələr əldə edilmişdir. BDU alimlərinin elmi tədqiqat institutlarında, laboratoriyalarda və kafedralarda aldığı nəticələr mühüm hesabatlara daxil edilmiş, praktik əhəmiyyət kəsb edən işlər kimi yüksək dəyərləndirilmişdir.

# zəfər ovqatlı 102-ci ildönümü

Ölkəmizdə konvergensinnovativ biliklərə və praktiki vərdişlərə malik ali təhsilli mütəxəssislərə artan tələbatı nəzərə alaraq BDU istehsalat müəssisələri ilə olan mövcud əlaqələrini genişləndirmiş, fakültə, elmi-tədqiqat institutları (ETİ), elmi-tədqiqat mərkəzləri (ETM) və elmi-tədqiqat laboratoriyalarının (ETL-lərin) elmi-tədqiqat istiqamətləri BDU-nun inkişaf strategiyasına uyğunlaşdırılmış, fundamental və tətbiqi istiqamətlərə üstünlük verilmişdir. Bu da istedadlı mütəxəssislərin sayının artmasına, innovativ təhsil proqramları və fəaliyyətlərinin çoxalmasına, elmi ideyaların kommersiyalaşdırılmasına kömək etmişdir.

BDU-da 2021-ci ildə ilk dəfə olaraq yaradılmış Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi (Excellence Center) təhsil-elm-istehsalat əlaqəsinin tətbiq və elmi nəticələrin kommersiyalaşdırılması prinsiplərini əsas götürərək istehsalat ilə əlaqələri genişləndirmişdir. Son 2 il ərzində BDU-da sənaye kimyası, rəqəmsal araşdırmalar, mikrobiologiya və virusologiya, biomühəndislik, kompleks geoloji və geofiziki tədqiqatlar kimi yeni sənaye yönümlü ETL-lər yaradılmış, qeyd olunan istiqamətlərdə bir sıra kommersiya əsaslı neft və qaz sənayesi üzrə layihə müqavilələri imzalanmışdır. Hazırda universitetdə 31 beynəlxalq və respublikadaxili elmi-tədqiqat layihəsi həyata keçirilir. Bu layihələr Avropa Birliyinin Horizon və TEM-PUS proqramları, TUBİTAK, Elmin İnkişafı Fondu, AMEA, SOCAR, BP Azərbaycan, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Dövlət Neft Şirkətinin Azneft İstehsalat Birliyi və digər yerli və xarici təşkilatlar tərəfindən maliyyələşdirilir.

Elmi fəaliyyətin təşkili və innovasiyalar, tədrisin təşkili və idarə olunması, tələbələrin elmi-texniki yaradıcılıq mərkəzlərinin birgə fəaliyyəti çərçivəsində tələbələrdə yaradıcılığın formalaşması (kreativlik) üçün qeyri-standart tapşırıqların birgə əməkdaşlıq və komanda şəklində həll olunması və öz fərdi biliklərini paylaşmaq bacarıqlarının aşılanması istiqamətində işlər aparılır, onlara elmi ideyaların reallaşdırılması, patentləşdirilməsi, tanıtımı və tətbiqi istiqamətlərində elmi və pedaqoji yönümlü təlimlər keçirilir, elmi tədbirlər təşkil olunur. Yeni texnologiyaların transferi və gənc tədqiqatçılara öyrədilməsi, sənayedə çalışan mütəxəssislərin tədrisə cəlb olunması, dünyanın müxtəlif (ABŞ, İtaliya, Qazaxıstan, Ukrayna, Yaponiya, Rumıniya, Almaniya, Macarıstan, Çex Respublikası və s.) elmi-tədqiqat institutlarında və universitetlərində çalışan mütəxəssislərin ustad dərsləri, mühazirələri və elmi seminarları təşkil olunur. Gənc tədqiqatçılarla alınmış elmi nəticələrin əsasında məqalələrin tərtibatı və dərc olunması istiqamətində müxtəlif təlimlər təşkil edilir.

Universitet alimləri tərəfindən nüfuzlu elmi nəşrlərdə çap edilən məqalələrin sayı da artan dinamika ilə inkişaf etməkdədir. Pandemiya dövrünün yaratdığı çətinliklərə baxmayaraq, "Clarivate Analytics" və "Elsevier" şirkətlərinin rəsmi məlumatlarına əsasən, 2021-ci ilin ilk 8 ayında BDU alimlərinin Web of Science bazasında 165-dən və SCOPUS bazasında isə 180-dən artıq məqaləsi dərc olunmuşdur. "Clarivate Analytics" şirkətinin rəsmi məlumatına əsasən, 1975-ci ildən bugünə qədər BDU əməkdaşları, doktorantları və tələbələri tərəfindən Web of Science bazasına daxil olan jurnallarda 3294 elmi əsər nəşr edilib. Bu əsərlərə 16839 dəfə istinad edilib. BDU-nun indeksi 47-yə, hər bir əsərə edilən istinadların orta sayı isə 5,11-ə qədər yüksəlib. Həm struktur islahatlarının aparılması, həm də prioritet istiqamətlərin dəqiqləşdirilməsi, elmi nəticələrin keyfiyyətinin kifayət qədər artmasına səbəb olmuşdur. *Bunun nəticəsidir ki, BDU əməkdaşlarının 2020-ci ildə Q1 və Q2 kvartil kateqoriyalı jurnallarda dərc etdirdiyi elmi məqalələrin sayı 2015-ci illə müqayisədə 2,5 dəfə artmışdır.*

BDU-da Web of Science Core Collection bazasında ən yüksək–Q1 kvartil kateqoriyalı jurnallar siyahısında yer alan "Applied and Computational Mathematics" və Q2 kvartil kateqoriyalı jurnallar siyahısında yer alan "TWMS Journal Pure and Applied Mathematics" jurnalları dərc olunur.

BDU-da təbiət və dəqiq elmlər sahələri üzrə yeni jurnallar təsis edilmişdir. Azərbaycan Respublikasının və xarici ölkələrin ayrı-ayrı elm və təhsil müəssisələrində təbiət və texnika elmləri sahəsində çalışan alimləri, tədqiqatçıları bir araya gətirmək, onların təcrübələrini, yeni ideya və elmi nəticələrini bölüşmək, elmi biliklərin müxtəlif tətbiq imkanlarını araşdırmaq üçün uyğun platforma təqdim etmək məqsədilə yeni 5 jurnalın nəşri nəzərdə tutulmuşdur: Bakı Dövlət Universitetinin Fizika və kosmos elmləri jurnalı, Bakı Dövlət Universitetinin Riyaziyyat və kompüter elmləri jurnalı, Bakı Dövlət Universitetinin Həyat elmləri və biologiya jurnalı, Bakı Dövlət Universitetinin Kimya və materialşünaslıq jurnalı, Bakı Dövlət Universitetinin Yer elmləri və ətraf mühit jurnalı. Jurnallarda müvafiq elm sahələrində fundamental və tətbiqi tədqiqatların əvvəllər dərc olunmamış orijinal nəticələrini, ən yeni elmi-texniki və innovativ nailiyyətləri özündə əks etdirən məqalələrin, o cümlədən konfrans materiallarının və icmal xarakterli məqalələrin anonim rəydən keçdikdən sonra Azərbaycan, rus və ingilis dillərində çap edilməsi qarşıya məqsəd qoyulmuşdur. Universitetdə əməkdaşların elmi fəaliyyətə təşviqi üçün davamlı olaraq məqsədyönlü tədbirlər həyata keçirilir, nüfuzlu elmi jurnallarda dərc edilən məqalələrin müəllifləri mükafatlandırılır, 27 Mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş "İlin alimi" nominasiyası üzrə müsabiqələr təşkil olunur, qaliblər yüksək məbləğdə pul mükafatına layiq görülürlər.

Son illər universitetin beynəlxalq əlaqələri də ən müxtəlif platformalarda genişlənməkdə və inkişaf etməkdədir. Bu əlaqələr özünü Universitetin beynəlxalq assosiasiya və cəmiyyətlərdə təmsil olunması, beynəlxalq qrant layihələri, müəllim və tələbə mübadiləsi, ikili diplom proqramlarının yerinə yetirilməsi və s. kimi akademik əməkdaşlıq şəklində ifadə edir. Son dövrlər BDU ilə Türkiyənin İstanbul, Kafkas, Uşak, Nişantaşı universitetləri, Fransanın Lion-2 Universiteti, Almaniyanın Martin Lüter adına Halle-Vittenberq Universiteti, Berlin Texniki Universiteti, Çinin Anhui Universiteti, Çex Respublikasının Cənubi Bohemia Universiteti, Özbəkistanın Daşkənd Dövlət Hüquq Universiteti, Daşkənd Dövlət Şərqşünaslıq Universiteti, Q.V.Plexanov adına Rusiya İqtisad Universiteti, Cənubi Koreyanın Kyunqvoon Universiteti, Qazaxıstanın Əl-Farabi adına Qazax Milli Universiteti, Pakistanın Lahor Universiteti, İsrailin Holon Texnologiya İnstitutu (HİT), ABŞ-ın Linkoln Universiteti, Portuqaliyanın Tomar Politexnik Universiteti, İsveçrənin Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti (UBIS) və s. çoxsaylı nüfuzlu universitetlər arasında əməkdaşlıq sazişləri, bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə ikili diplom proqramına dair müqavilələr imzalanmışdır.

Beynəlxalq əlaqələrlə yanaşı, ölkədaxili əməkdaşlığa xüsusi önəm verilir. Bu kimi əlaqələr dövlət qurumları və özəl şirkətlərlə yaradılır, bilavasitə tədris prosesinin, elmi tədqiqat fəaliyyətininin səmərəli təşkilinə, eləcə də məzunların işlə təmin olunmasına yönəldilir. Qarabağ Dirçəliş Fondu, Azərbaycan Respublikası Baş Prokurorluğu, Azərbaycan Vəkillər Kollegiyası, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), AzərGold, PAŞA Bank, "PAŞA Həyat Sığorta" və digər qurumlarla əməkdaşlıq məsələləri və perspektivləri müzakirə olunmuş, müvafiq memorandumlar, müqavilələr imzalanmışdır.

2019-cu ilin əvvəlindən dünyanı bürüyən və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən pandemiya elan edilən koronavirus (COVID-19) xəstəliyi ilə əlaqədar bütün fəaliyyət sahələrində olduğu kimi, təhsil sahəsində də müəyyən çətinliklər, eyni zamanda, yeni reallıqlar yaranmışdır. Bütün bunların fonunda Universitetdə tədris prosesi və elmi-tədqiqat fəaliyyəti davam etdirilir, ali təhsil müəssisəsi öz işini yeni dövrün şərtləri və reallıqlarına müvafiq şəkildə uğurla həyata keçirir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bilavasitə diqqət və qayğısı sayəsində ölkəmizdə koronavirus (COVID-19) xəstəliyi ilə ən yüksək səviyyədə mübarizə aparılır, vaksinasiya prosesi sürətlə həyata keçirilir. Universitet kollektivi də bu prosesdə fəal şəkildə iştirak edir. Bu gün universitet kollektivinin 80 faizindən çoxu peyvənd olunmuşdur və səbirsizliklə ənənəvi tədrisə qayıdacaqları günü gözləyirlər.

Pandemiya dövründə tədris prosesinin yüksək səviyyədə onlayn formada təşkili ilə yanaşı, əməkdaşların və tələbələrin maarifləndirilməsi sahəsində də mühüm işlər görülmüş, bu mövzuya aid mühazirələr, elmi seminarlar, görüşlər təşkil edilmiş, həmçinin mütəmadi olaraq universitetin Psixoloji Yardım Sektorunun mütəxəssisləri tərəfindən stres, həyəcan, təşviş, eyni zamanda, stresin immun sisteminə təsiri mövzusunda təlimlər keçirilmişdir.

2020-ci ilin sentyabr ayının 27-də mənfur düşmənin növbəti təxribatlarına cavab olaraq başlayan və parlaq qələbə ilə başa çatan Vətən Müharibəsində BDU kollektivi, tələbələrimiz və məzunlarımız həm ön, həm də arxa cəbhədə fədakarlıq göstərmişdir. Universitetin çoxsaylı tələbə və məzunu könüllü olaraq cəbhəyə yollanmış, onlardan 18 nəfəri müqəddəs şəhidlik zirvəsinə ucalmışdır. Universitetin bütün korpuslarının foyelərində əziz və unudulmaz xatirələri hər zaman bizimlə olan şəhid tələbə və məzunlarımızın xatirə lövhələri vurulmuş, onlara həsr olunan sənədli filmlərin və xatirə kitablarının hazırlanmasına başlanılmışdır. Universitet rəhbərliyi və kollektivi mütəmadi olaraq şəhid məzun və tələbələrin ailə üzvləri ilə əlaqə saxlayır, Vətən Müharibəsindən qalib əsgər kimi qayıtmış və təhsilini davam etdirən tələbələrə xüsusi həssaslıqla yanaşır.

Vətən Müharibəsi günlərində BDU kollektivi və tələbələri ön cəbhədə olduğu kimi, arxa cəbhədə də mübarizə aparmış, xüsusilə informasiya savaşına özlərinin töhfələrini vermişlər. Müharibənin ilk günlərində universitet rəhbərliyi tərəfindən BDU-nun əməkdaşlıq etdiyi dünyanın 200-dən çox ali məktəbinin rektorlarına məktub ünvanlamış, onlardan ölkəmizin haqlı mübarizəsinə öz dəstəklərini vermələri xahiş olunmuşdur. Qısa zaman ərzində dünyanın aparıcı universitetlərindən bu məktuba cavab kimi dəstək məktubları gəlmiş, Azərbaycanın ədalətli mövqeyi qətiyyətlə müdafiə olunmuşdur. Eyni zamanda, Vətən Müharibəsi günlərində Bakı Dövlət Universitetinin, jurnalistika fakültəsinin bəyanatları yayılmış, həmin sənədlərdə münaqişənin tarixi, Azərbaycanın haqlı mövqeyi barədə faktlar yer almış, beynəlxalq qurumlardan və beynəlxalq jurnalist təşkilatlarından məsələyə ədalətli münasibət göstərilməsi ifadə olunmuşdur. Həmçinin BDU rektorunun kollektiv adından ölkə Prezidentinə müraciəti ünvanlamışdır. Müraciətdə universitet kollektivinin Vətən Müharibəsində qələbəyə nail olunması naminə dövlətimizə və ordumuza hər cür dəstək verməyə hər an hazır olduğu xüsusi vurğulanmışdır. *Universitet Elmi Şurasının qərarı ilə universitetin büdcəsindən və əməkdaşların öz istəkləri ilə onların əməkhaqlarından Silahlı Qüvvələrə Yardım Fonduna və YAŞAT Fonduna ianələr edilmişdir.*

*Tarixi zəfərlə başa çatan Vətən Müharibəsindən sonra da BDU kollektivi bu sahədə fəaliyyətini davam etdirir. Universitet rəhbərliyinin tövsiyəsi ilə dünya və Azərbaycan mətbuatının müharibə dövründəki fəaliyyətinin monitorinqi aparılmış və müvafiq nəticələri özündə əks etdirən kitablar artıq çapa hazırdır. Beş istiqaməti əhatə edən həmin kitablarda ölkə başçısının müharibə günlərində xarici mətbuata verdiyi müsahibələr, xarici, yerli və Ermənistan mediasında Qarabağ müharibəsi ilə bağlı yer almış yazılar və eyni zamanda, BDU əməkdaşlarının, tələbələrin müharibə dövründə mətbuatdakı fəaliyyəti öz əksini tapmışdır. İnanırıq ki, bu kitablar gələcək tədqiqatlar üçün zəngin və etibarlı mənbə rolunu oynayacaqdır.*

Bu il ilk dəfədir ki, doğma universitetimizin yaradılmasının növbəti ildönümünü torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüzün təmin olunması şəraitində qeyd edirik. Universitetin çoxminli kollektivi və tələbələri Vətən Müharibəsində əldə etdiyimiz tarixi zəfərdən ilhamlanaraq Azərbaycan elminə, təhsilinə, vətəndaş cəmiyyəti quruculuğuna, ölkəmizin hərtərəfli inkişafına öz töhfələrini verməkdə daha inamlı, daha qərarlıdır. Universitet kollektivi, tələbələrimiz respublikamızda dövlətçiliyin daha da möhkəmləndirilməsində, ulu öndər Heydər Əliyevin inkişaf doktrinasının daha parlaq şəkildə həyata keçirilməsində öz tarixi missiyasını yerinə yetirir, möhtərəm Prezidentimiz İlham Əliyevin başçılığı ilə qüdrətli, xoşbəxt, qalib Azərbaycanda yaşamaqdan şərəf duyurlar.

***Elçin Babayev,***
*Bakı Dövlət Universitetinin rektoru*

*"Xalq qəzeti",*
*1 Sentyabr 2021-ci il*

# BDU Pakistanın Lahor Universiteti ilə əməkdaşlığa başladı

***Sentyabrın 1-də Bakı Dövlət Universiteti və Pakistanın ən böyük universitetlərindən biri olan Lahor Universiteti arasında tələbə və müəllim mübadiləsi, tədris prosesinin təşkili və elmi araşdırmalar sahəsində əməkdaşlıq, ikili diplom proqramının yaradılmasına dair müzakirələr aparılıb və Anlaşma Memorandumunun imzalanma mərasimi keçirilib. Memorandumun məqsədi tərəflər arasında qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığı yüksək səviyyədə təmin etməkdir.***



Onlayn keçirilən tədbirdə BDU-nun rektoru Elçin Babayev, Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov, Pakistanın Azərbaycandakı səfiri Bilal Haye, Lahor Universitetinin İdarə Heyətinin sədri Üveys Rauf, Lahor Universitetinin rektoru Məhəmməd Əşrəf və digər məsul şəxslər iştirak edib.

*Rektor Elçin Babayev çıxışında 2020-ci ilin Azərbaycan üçün ən əlamətdar tarixlərdən biri olduğunu vurğulayıb, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən Müharibəsində qazanılmış möhtəşəm qələbədən və hazırda aparılan quruculuq və bərpa işlərindən danışıb.* O, 44 günlük Vətən Müharibəsi zamanı Pakistanın Azərbaycanın yanında olduğunu xüsusi vurğulayıb. Rektor hər iki ölkə arasında tarixə söykənən güclü ikitərəfli münasibətlərin olduğunu nəzərə çatdırıb. İki ölkə arasında mədəni-humanitar sahədə də əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirən E. Babayev, bu istiqamətdə elm və təhsil sahələrinin də aparıcı rola malik olduğunu qeyd edib. O, imzalanacaq Memorandum ilə iki qurum arasında elm, təhsil və sosial sahələrdə əməkdaşlıq əlaqələrinin daha da inkişaf edəcəyinə inandığını bildirib. Rektor bu əməkdaşlığın hər iki ölkənin səfirlikləri tərəfindən də dəstəklənəcəyinə ümidvar olduğunu vurğulayıb. Tədbir iştirakçılarına bu ilin oktyabrında Bakı Dövlət Universitetində keçiriləcək "Cihazqayırma və tərsinə mühəndisliyin əsasları üzrə 1-ci ICESCO seminarı" və Pakistandan olan əsas məruzəçi-iştirakçılar haqqında da məlumat verilib.

Lahor Universitetinin İdarə Heyətinin sədri Üveys Rauf öz çıxışında bu əməkdaşlığın elm və təhsil sahəsində əlaqələrə mühüm töhfə verəcəyinə inandığını bildirib. Universitetlər arasında qurulan əməkdaşlığın inkişafı üçün hər iki tərəfdə güclü potensialın mövcudluğunu bildirən Üveys Rauf müəllimlərə və tələbələrə təqaüdlərinin verilməsi, qarşılıqlı maraq kəsb edən sahələrdə birgə ikili diplom proqramlarının, kursların və tədris proqramlarının hazırlanması, tələbə, müəllim və elmi işçi mübadiləsi, birgə və ya əlaqələndirilmiş elmi tədqiqat və texnoloji inkişaf proqramlarının hazırlanması, elmi jurnallarda birgə nəşrlər, birgə tədqiqat layihələrində əməkdaşlıq, onlayn kitabxana və digər informasiya resurs mərkəzlərindən istifadə, müxtəlif mövzularda mühazirələr, seminarlar, simpoziumlar, tematik müzakirələr, konfranslar təşkil etmək və s. istiqamətində gələcək fəaliyyətin gücləndirilməsinə yönəlmiş birgə səylərin zəruriliyini xüsusilə qeyd edib. Lahor Universitetinin İdarə Heyətinin sədri tədbirin Pakistandan olan iştirakçıları kimi 44 günlük Vətən müharibəsində Azərbaycanın zəfər qazanması münasibətilə Azərbaycan xalqını təbrik edib və əldə olunmuş Qələbəni ədalətin təntənəsi adlandırıb.

Lahor Universitetinin rektoru Məhəmməd Əşrəf də öz çıxışında hər iki ali məktəb arasındakı əməkdaşlığa xüsusi önəm verdiklərini diqqətə çatdırıb. Rektor əlavə olaraq müvafiq sahələrdə əməkdaşlığın inkişafı üçün perspektivlərin mövcud olduğunu bildirib və Memorandum çərçivəsində birgə əməkdaşlıq istiqamətləri üzrə tədqiqat, təcrübə, elmi və metodiki layihələrin hazırlanması və həyata keçirilməsi, elmi və metodiki materiallar, aparılan tədqiqatlar haqqında məlumat mübadiləsi sahəsində əməkdaşlığın genişləndirilməsinin zəruriliyinə diqqəti yönəldib.

*Pakistanın Azərbaycandakı səfiri Bilal Haye tədbirdə Azərbaycan və Pakistan arasında mövcud qarşılıqlı etimadın elm və təhsil sahəsində də hər iki ölkə universitetləri arasında əməkdaşlığa münbit şərait yaratdığını vurğulayıb. Bildirilib ki, Azərbaycan Pakistan üçün əsas strateji tərəfdaş ölkələrdəndir. Cənab səfir Anlaşma Memorandumunun iki qardaş ölkə arasında bağların daha da möhkəmlənməsinə töhfə verəcəyini bildirib. O qeyd edib ki, Azərbaycana gəldiyi ilk gündən etibarən iki ölkənin universitetləri arasında əlaqələr yaratmağa çalışıb, həmçinin vurğulayıb ki, bu yöndə ilk addımı BDU rektoru ilə görüşərək atıb.*

Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov 44 günlük Vətən Müharibəsi zamanı Pakistanın birmənalı dəstək nümayiş etdirdiyini vurğulayıb. Bildirib ki, Pakistan Ermənistanı bir ölkə kimi tanımayaraq Azərbaycana müstəqilliyinin ilk günündən dəstək verib. Anlaşma Memorandumunun məqsədlərini dilə gətirən cənab səfir təhsil və elm sahəsində ikitərəfli əməkdaşlığı hər iki ölkənin intellektual araşdırmalarına və inkişafına töhfə verəcək əlamətdar hadisə adlandırıb. X. Fərhadov bildirib ki, Bakı Dövlət Universiteti Azərbaycanın ilk və ən böyük universitetidir və Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev də bu Universitetin məzunu olub. O, BDU-da Azərbaycan üçün yüksək ixtisaslı kadrların hazırlanmasını yüksək qiymətləndirib. Bakı Dövlət Universitetinin çoxminli məzunlarından biri olduğu üçün fəxr etdiyini və qürur duyduğunu səsləndirən cənab səfir Pakistanın ən böyük universitetlərindən biri olan, tibb, mühəndislik, incəsənət və sosial elmlər üzrə ixtisaslaşmış Lahor Universitetini bu əməkdaşlığın möhkəmləndirilməsi üçün yaxın gələcəkdə ziyarət etməyi planlaşdırdığını dilə gətirib. Gələcəkdə əməkdaşlığın genişləndirilməsi baxımından Anlaşma Memorandumunun önəmini vurğulayıb və cənab Bilal Haye ilə birlikdə, universitetlər arasında bütün sahələrdə əməkdaşlığın inkişafına töhfə vermək üçün lazımi dəstək verəcəklərini dilə gətirib.

Görüşdə tərəflər iki xalq arasında tarixən mövcud olan ənənəvi dostluq əlaqələrini təqdir edərək Azərbaycan ilə Pakistan arasında siyasi dialoqun inkişafından məmnunluq ifadə ediblər. Görüş zamanı, həmçinin iki universitet arasında elm və təhsil sahələrində digər əməkdaşlıq məsələləri müzakirə olunub.

Qeyd edək ki, Lahor Universiteti Pakistanın ən böyük universitetlərindəndir və Universitetin 5 filiali, 40 mindən çox tələbəsi, 11 fakültəsi vardır.

Görüşün sonunda BDU və Lahor Universiteti arasında Memorandum imzalanıb.

# BDU-nun 15 tələbəsi Prezident təqaüdünə layiq görülüb

***2021/2022-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş, Bakı Dövlət Universitetinin aşağıda adları qeyd olunan 14 tələbəsi Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2021-ci il tarixli Sərəncamı ilə Prezident təqaüdünə layiq görülüb:***

*Aslanova Rübabə Kamran qızı – 689,2 – Riyaziyyat müəllimliyi*
*Cabbarzadə Sevinc Zeynal qızı – 671,3 – Hüquqşünaslıq*
*Çələbiyev Nazim Eldəniz oğlu – 677,8 – Hüquqşünaslıq*
*Ənsərli Cahan Akif qızı – 679,1 – Hüquqşünaslıq*
*Hacıyeva Sevin Eldar qızı – 663,5 – Hüquqşünaslıq*
*Həsənov İlham Babək oğlu – 674,5 – Hüquqşünaslıq*
*Heydərova Elanə Arif qızı – 668,8 – Hüquqşünaslıq*
*Hümmətova Aysu Razim qızı – 666,4 – Hüquqşünaslıq*
*Hüseynzadə Aysun Eldar qızı – 675,5 – Hüquqşünaslıq*
*İsmayılova Nuridə Qüdrət qızı – 664,3 – Azərbaycan dili və ədəbiyyatı müəllimliyi*
*Mehdizadə Cavidan Azər oğlu – 668,4 - Hüquqşünaslıq*
*Məhərrəmli Şahid Rövşən oğlu – 668,1 – Hüquqşünaslıq*
*Məmmədli İsmayıl İbrahim oğlu – 679,1 – Hüquqşünaslıq*
*Zeynallı Ülviyyə Üzeyir qızı – 679,3 – Hüquqşünaslıq*
*Ağayeva Əsmər Osman qızı - 665,3 – Hüquqşünaslıq*

***Tələbələrimizi təbrik edir, təhsillərində uğurlar arzu edirik!***

# "Gənc istedadlar" liseyində ilk dərs günü

***Bakı Dövlət Universitetinin nəzdindəki "Gənc istedadlar" liseyində yeni tədris ilinin açılışı münasibətilə sentyabr 29-da tədbir keçirilib.***

Tədbir Azərbyacan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Tədbirdə Vətən müharibəsində həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilmiş mülki vətəndaşlarımıza və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq onların əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilib. Liseyin direktoru Arif Bağırov çıxış edərək, ölkə başçısının təhsilə olan qayğısından danışıb, şagird və müəllimləri ilk dərs günü münasibətilə təbrik edib, onlara müvəffəqiyyət arzu edib, şagirdlərin elmdə və təhsildə daha böyük nailiyyətlər qazanacaqlarına əminliyini ifadə edib.

Daha sonra cari ildə liseyin v sinfinə qəbul zamanı azərbaycan və rus bölmələri üzrə yüksək bal toplamış şagirdlərdən Fidan Dəmirli və Sulduz Hacıyev, valideynlər adından hərbçi polkovnik leytenant Vüqar Abdullayev, liseyi qızıl medalla bitirən məzunu Şamil Abbasov ilk dərs günü münasibətilə çıxış ediblər. Sonra liseyin VI sinif şagirdləri öz ərazi bütövlüyünü bərpa etmiş qalib Azərbaycan dövlətinin şagirdləri olduqları ilə fəxr etdiklərini qeyd etdikdən sonra "Ana yurdum Azərbaycan" şerini səsləndiriblər. Sonda 2021/2022-ci tədris ilinin ilk zəngi səsləndirilib.

# BDU ilə Özbəkistanın Səmərqənd Dövlət Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb

***Son illərdə dünyanın nüfuzlu elm və təhsil müəssisələri ilə sıx əlaqələr quran, nüfuzlu ali təhsil müəssisələri ilə ikili diplom proqramlarını həyata keçirən Bakı Dövlət Universiteti beynəlxalq əlaqələrini genişləndirir.*** Hazırda beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi Universitetin inkişaf startegiyasında prioritet istiqamətlərdən hesab olunur. BDU ilə Səmərqənd Dövlət Universiteti arasında imzalanan əməkdaşlıq müqaviləsi də bu istiqamətdə atılan növbəti addım kimi universitetlər arasında akademik, elmi və mədəni mübadilə imkanlarının inkişafını, elmi-tədqiqat işlərində əməkdaşlığı nəzərdə tutur.

Sentyabrın 16-da əməkdaşlıq müqaviləsini BDU-nun rektoru Elçin Babayev və Səmərqənd Dövlət Universitetinin rektoru Rustam Xalmuradov imzalayıb. Müqavilənin məqsədi birgə konfransların, seminarların, simpoziumların keçirilməsi, elmi jurnallarda birgə məqalələrin çap edilməsi, ortaq tədqiqat layihələrinin işlənməsi, ortaq mədəni proqramların təşkili, akademik və inzibati kadrların, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığı təmin etməkdir. Məlumat üçün bildiririk ki, 2020-ci ildə 600 illiyini qeyd edən Səmərqənd Dövlət Universitetində 15 fakütə, 19 mərkəz və şöbə fəaliyyət göstərir.

# Yolumuz Şuşayadır...

## Ələmdar Cabbarlının Şuşa təəssüratı

***Bibiheybət məscidini keçən kimi profilimdə avtobusdan şəklimi paylaşıram və altından "Yolumuz Şuşayadır..." sözlərini yazıram. Bir-birinin ardınca dostlardan təbriklər gəlir, xeyir-dua diləyənlərin, yaxşı yol arzulayanların ardı-arası kəsilmir. Gözucu "Yolumuz Şuşayadır..." sözlərini bir də oxuyuram. Yox, oxumuram - öpüb gözlərimin üstünə qoyuram bu mübarək sözləri. Bu sözləri yazmaq üçün düz 29 il, 3 ay, 20 gün gözləmişəm. Amma 29 il, 3 ay, 20 gün ərzində bircə gün də olsun inamımı itirməmişəm. Tarixi ədalətin zəfər çalacağına, əvvəl-axır bu zülmün, zillətin bitəcəyinə, dövlət başçımızın dediyi kimi, Allahın Azərbaycan xalqının dualarını eşidəcəyinə həmişə inanmışam.***




Elə 30 il bizi sınmağa, əyilməyə qoymayan bu müqəddəs inamla da Şuşamıza - ruhumuzun qibləsinə doğru gedirik. Avtobusumuzda işğaldan öncə Şuşanı görənlər, gəzib-dolaşanlar da var, mənim kimi o müqəddəs torpağa ilk dəfə qədəm basacaq insanlar da.

Günorta saatlarında Müzəffər Ali Baş Komandanımızın sərkərdəliyi ilə şəhidlərimizin canı, qazilərimizin qanı hesabına azad olunmuş ərazilərə - Füzuli torpağına çatırıq. Və elə ilk mənzərədən erməni vəhşiliyinin, erməni faşizminin şahidi oluruq. *Prezidentimizin Füzuliyə ilk səfəri zamanı söylədiyi məşhur ifadə qulaqlarımda səslənir: "Sanki bu torpaqlardan bir vəhşi qəbilə keçib".* Füzuli şəhəri və kəndləri ümumiyyətlə yoxdur. Füzulidə evlərin daşını da söküb aparıblar. Sanki hansısa səhradan keçirsən. Amma nə yaxşı ki, artıq bu səhrada səhra qorxusu, səhra tənhalığı yoxdur. Hər tərəfdən ümid işığı parlayır. Çəkilən yeni yolların, qurulan su elektrik stansiyalarının, Füzuli Beynəlxalq Hava Limanının timsalında. Artıq Füzulunin səhralıqları dərd-qəm, tənhalıq səhralığını deyil, göyərmiş ümidlərimizin boy verdiyi bir məkanı özündə ifadə edir.

Füzulidən Şuşaya yenicə çəkilmiş Zəfər yolu ilə qalxırıq. İlahi, necə böyük, necə xoşbəxt xalqıq. Zəfər yolu ilə Şuşaya doğru irəlilədikcə qazandığımız tarixi qələbənin miqyası, möhtəşəmliyi daha parlaq, daha aydın görünür. Şuşanın əzəmətli dağları göründükcə dünya güclərinin, bizi istəməyən qüvvələrin, mənfur düşmənin qarşısında qazandığımız zəfərin böyüklüyünə bir daha heyran oluruq. Və bir daha əmin oluruq ki, bu tarixi zəfəri qazanan sərkərdə dünyanın ən böyük sərkərdəsidir.

Artıq mənzilə yetməkdəyik. Şuşanın əzəmətli qala divarları görsənir. 2010-cu ildə Həcc ziyarətində Kəbə evinə yaxınlaşanda keçirdiyim hissləri Şuşanın qala qapılarını görəndə yenidən yaşayıram. Şuşa da bizim ruhumuzun qibləsidir. Şükür, ruhumuz qibləsinə qovuşur. "Bundan sonra ta ölsəm də arzum yoxdur" - öz-özümə pıçıldayıram. Şuşanın mübarək camalını görən səfər yoldaşlarımın hamısı heyrətdən donub qalıb. Şuşanın torpağını, daşını öpüb gözlərimin üstünə qoyuram. Göz yaşlarım içimə axır. Bu qutsal torpaqda aldığım hər nəfəsə görə qəhrəman şəhidlərimizi ehtiramla yad edirəm, cəngavər qazilərimizə Allahdan şəfalar diləyirəm.

Şuşada üz tutduğum ilk ünvan Yuxarı Gövhər ağa məscidi olur. Şəhidlərimizin müqəddəs ruhları üçün dualar edirəm. 2010-cu ildə Məkkə şəhərində Kəbə evində ibadət edərkən etdiyim diləyi xatırlayıram: "İlahi, bir gün də azad edilmiş torpaqlarımızdakı məscidlərdə namaz qılmağı mənə nəsib et". "Mövlam neyləsə, gözəl eylər" - deyib də Gövhər ağa məscidində Tanrıdan bir dilək də diləyirəm: "İlahi, bir gün də mənə Göyçədə - Dədə Ələsgərin yurdunda ibadət etməyi nəsib et..." Məsciddən Şuşanın məşhur qayalıqlarına üz tuturam. Əsgərlərimizin Şuşanı azad etmək üçün cəngavər kimi aşdığı qayalıqlara. O əzəmətli qayaların başında iki dəqiqə dayananda adamı vahimə basır ki, bu saat yuvarlanıb yıxılacaqsan. Amma qəhrəman əsgərlərimiz döyüşə-döyüşə bu sıldırım qayaları aşaraq Şuşaya daxil olublar. Bu, möcüzədir, heç bir filmdə, əsərdə belə bir səhnə yoxdur. Xalqımın qəhrəmanlığına, yenilməzliyinə bir daha heyran oluram...

### *"Vaqif məqbərəsində..."*

Vaqifin düşmən tərəfindən dağıdılmış muzey-məqbərə kompleksinin bərpa olunduqdan sonra açılışına anlar qalır. Bu, məqbərənin ikinci açılışıdır. İlk dəfə 39 il əvvəl - qarlı-çovğunlu yanvar günlərində Ulu öndərimiz Heydər Əliyev açıb bu məqbərəni. Ulu öndərin ruhunu ehtiramla anaraq məqbərənin önündə həyəcanla gözləyirik. Az sonra müqəddəs ata vəsiyyətini şərəflə yerinə yetirən müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyev və xeyirxahlıq, sadəlik rəmzi olan Mehriban xanım Vaqif Poeziya Günlərinin keçirildiyi məkana gəlirlər. Ayaq üstə və alqışlarla qarşılayırıq yenilməz sərkərdəmizi və Mehriban xanımı.

Cənab Prezident önə keçir. Əvvəlcə Vətən uğrunda qəhrəmancasına şəhid olmuş igidlərimizin xatirəsi yad edilir. Sonra müzəffər Ali Baş Komandanın çıxışını dinləyirik. Mübarək çıxışda dostlara da, düşmənə də mesaj var. Hərə özünə aid olanı götürür bu parlaq nitqdən. Prezidentimiz məqbərənin ilk açılışını da xatırladır: "Əziz dostlar, təxminən 40 il bundan əvvəl, bax, bu yerdə atam durmuşdu, mən isə o tərəfdə durmuşdum. Şaxtalı-qarlı havada Vaqif məqbərəsinin açılışı idi. Ondan sonra 1982-ci il iyulun 29-da atamla bərabər ikinci dəfə Şuşaya gəlmişəm. O vaxt Vaqif Poeziya Günləri keçirilirdi. Bu gün isə ikinci dəfə Vaqifin məqbərəsinin açılışını biz qeyd edirik. Vaqif Poeziya Günləri keçirilərkən atamın 59 yaşı var idi. Bu gün mənim 59 yaşım var. Bəziləri hesab edə bilər ki, bu, təsadüfdür. Ancaq mən hesab edirəm ki, burada böyük rəmzi məna var, tarix təkrarlanır". Prezidentin bu sözlərindən həm kövrəlirik, həm də qürur hissi keçiririk. Bu gözəl günlərimizin memarı Ulu öndərimizi bir daha rəhmətlə anırıq...

Sonra çıxışlar olur, şeirlər oxunur. Sənətçilərimizin ifasında "Qarabağ şikəstəsi", Vaqifin gözəlləmələri yenidən və əbədi səslənir Şuşada. Nəriman Həsənzadə "Xarıbülbül" Festivalı bir möcüzəydi" - deyib bugünkü möcüzənin - Vaqif Poeziya Günlərinin baş verdiyi məkandan "Xarıbülbül" möcüzəsini xatırladır.

### *"Ən yüksək reytinq balım..."*

İkinci gündür Şuşadayıq. Sevincdən, həyəcandan gecə gözümə yuxu getməyib. Səhərə kimi oyaq qalmışam. Şuşanın gecəsini seyr eləmişəm. Şükür Allaha, Şuşa tamamilə işıqlandırılıb. Gecə evlərdən işıqlar gəlir. Adamın ürəyi dağa dönür. Səhər açılan kimi yenə şəhəri dolaşıram. Şəhərə çıxırsan, insanları görürsən, baxırsan ki, Şuşada həyat var. İnsanlar da bir-birini elə gözəl, elə xoş ovqatla salamlayır ki... Hamı istəyir ki, birinci salamı o versin. Şuşa həm də mehribanlıq yaradır. Bu da Şuşanın müqəddəs ruhundan irəli gəlir. Çörək evindən tarixi Qala çörəyi alıram və bir az da pendir almaq üçün mağazaya daxil oluram. Şuşada mağazada növbədə gözləyirəm. Elə xoşuma gəlir ki... Sənin böyüklüyünə sonsuz şükürlər olsun, İlahi.

***Günün ikinci yarısı Şuşada elmi simpozium keçirilir. Bu, torpaqlarımız işğaldan azad olunandan sonra Qarabağda keçirilən ilk elmi konfransdır.*** Heydər Əliyev Fondunun təşkil etdiyi "Ədəbi müstəvidə Qarabağın dünəni və bu günü" mövzusundakı elmi konfransda mən də məruzə edirəm. Bu an özümü dünyanın ən xoşbəxt adamı sayıram. Elmlə məşğul olan bir adamın karyerasında qazana biləcəyi ən böyük uğurlardan biri də dünyanın hansısa ölkəsində böyük bir konfransda iştirak və çıxış etməkdir. Düşünürəm ki, Şuşada etdiyim məruzə bunların hamısının fövqündədir. Bizdə universitetdə müəllimlərin reytinq balı deyilən bir anlayış var. Hər ilin sonunda bizə iştirak etdiyimiz konfranslara görə ballar verilir. Dəfələrlə dünyanın bir neçə ölkəsində konfranslarda iştirak etmişəm. Lakin hesab edirəm ki, mənim indiyə qədər qazandığım və bundan sonra qazanacağım ən yüksək reytinq balım mənəvi baxımdan elə məhz Şuşadakıdır.

### *"Şuşada taksi xidmətinin əsasını qoyuruq..."*

Axşamçağı Cıdır düzünə getmək sevdasına düşürük. Təbii ki, ayaqla getməliyik. İki gündür mənimlə birgə Şuşanı qarış-qarış gəzən Əsəd Cahangir deyir ki, bəlkə bir maşın tapaq, deyəsən, burdan Cıdır düzünə xeyli yol var, ya da sabah gedək. Amma mən israrla indi getmək istədiyimi deyirəm. Bizi müşahidə edən 25-28 yaşlı gənc yəqin ki, söhbətimizi eşidir:

- Mən sizi öz maşınımla Cıdır düzünə apararam.

Təklif gözlənilməz və inanılmaz olur. Dərhal otururuq maşına. Yolda öyrənirik ki, qardaşımız Şirvan rayonundandır. Şuşada bərpa-quruculuq işləri ilə məşğuldur. Cıdır düzünü gəzib-dolaşırıq, Şuşanın gözəlliyinə bir daha heyran oluruq. Bir saat sonra bizi qaldığımız "Xarıbülbül" otelinin qarşısında düşürən sürücüyə pul təklif edirik. Götürmür. İsrarlı xahişimizdən sonra pulu cibinə qoyur və gülümsəyərək deyir:

- Deyəsən, Şuşada taksi xidmətinin əsasını biz qoyduq...

### *"3 dəqiqə Dilqəm Əsgərovun kamerasında..."*

İki gündür ki, Şuşa türməsinə getmək və Dilqəm Əsgərovun kamerasını öz gözlərimlə görmək fikri məni rahat buraxmır... Qala divarlarından sağa burulub türməyə gedən yola çıxıram. İgidlərimiz dərhal hara getməyimlə maraqlanır.

*- Dilqəm Əsgərovun kamerasını görmək istəyirəm...*

...Dilqəmin 5 il 7 ay saxlanıldığı kameraya daxil oluram. Metr yarım uzunu, təxminən bir metrə qədər də eni olan, pəncərəsiz bir yerdə 5 il 7 ay necə dözmək olar, İlahi... Yayda isti, qışda buz kimi soyuq, qapısı bağlı bir cəhənnəmdə insan necə dözə bilər? Özü də mənfur, amansız düşmənin içində.

*- Dilqəmin yaşadığı hissləri az da olsa yaşamaq istəyirəm - yanımdakı igidə deyirəm.*

Dilqəm Əsgərovun yatdığı çarpayının üstündə otururam və 5 dəqiqənin tamam olması üçün saata baxıram. 3-cü dəqiqədə bu vahiməli kamerada dayanmağın mümkünsüz olduğunu görüb, təngnəfəs halda havaya çıxıram. Və mənim cəmi 3 dəqiqə dayana bildiyim bu kamerada 5 il 7 ay cəhənnəm əzabı yaşayan Dilqəm Əsgərovun dəmir iradəsini, polad əzmini, səbrini ifadə etməyə söz tapa bilmirəm...

### *"Dağlar xəbər tutsa, buraxmaz məni..."*

Şuşadan xoş təəssüratlarla, inanılmaz hisslərlə ayrılıram. Əslində isə ruhən heç ayrılmıram. Biz də sanki Şuşadan xəbərsiz çıxdıq. Bəlkə xəbər tutsaydı, Şuşa bizi buraxmazdı. İnşallah, tezliklə - bərpa-quruculuq işləri bitən kimi Şuşaya, Ağdama, Laçına, Kəlbəcərə, Füzuliyə, Qubadlıya, Zəngilana, Cəbrayıla, Qarabağımızın hər bir guşəsinə əbədi yaşamaq üçün qayıdacağıq. Və Cənab Prezidentin dediyi kimi, biz Zəngəzura da qayıdacağıq!

### *"Yarə yetmək diləsən..."*

Zəfər yolu ilə Bakıya qayıdırıq. Qəlbimiz fərəhlə, qürurla və sevinclə doludur. Çünki tarixi ədalət bərpa olunub, ilahi ədalət bərpa olunub. Prezidentimizin iki gün öncə Şuşada dediyi sözləri xatırlayıram: "İşğal dövründə bir çoxlarımız - həm keçmiş məcburi köçkünlər, həm bütün Azərbaycan xalqı, o cümlədən, mən də dəfələrlə fikirləşirdik ki, dünyada ədalət yoxdur. Çünki ədalət olsaydı, biz bu vəziyyətə düşməzdik. Mən də o cümlədən, bu fikirdə idim. Ancaq həyat göstərdi ki, ədalət var, sadəcə dözümlü olmaq lazımdır, səbirli olmaq lazımdır, hədəfə doğru getmək lazımdır. Ədaləti bərpa etmək üçün fədakarlıq göstərmək lazımdır".

Füzulidən Bakıya doğru yön alırıq. Düşmənin daş üstə daş qoymadığı Füzulidən. Amma əminik ki, ən yaxın müddətdə burada dünyanın ən gözəl şəhərlərindən biri salınacaq. Bütün Qarabağımız cənnətə çevriləcək. Ona görə də çox sevincliyik, istəyirik ki, qəlbimizin sevincini, şadlığını hər kəs duysun.

***Ələmdar Cabbarlı***
*dosent,*
*filologiya üzrə fəlsəfə doktoru*

# BDU tələbələrinin şəhid anaları ilə görüşü keçirilib



***Bakı Dövlət Universiteti Tələbə Gənclər Təşkilatının nəzdində fəaliyyət göstərən "Gələcəyin tarixi" klubunun şəhid ailələri ilə növbəti onlayn görüşü keçirilib.***

Tədbirdə klubun rəhbəri, Tarix fakültəsinin tələbəsi Güllü Həsənzadə çıxış edərək 44 günlük Vətən Müharibəsində müzəffər Azərbaycan ordusunun misilsiz rəşadətindən, igid əsgərlərimizin qəhrəmanlıqlarından söhbət açıb, şəhidlərimizin canı və qanı bahasına müqəddəs Vətən torpaqlarımızın düşmən tapdağından azad olunduğunu bildirib.

Tədbirdə şəhid Ərəstun Xıdırovun anası Səidə xanım, şəhid Elnur Nurullayevin anası Sevinc xanım, şəhid Veys İsmayılovun anası Zeynəb xanım çıxış edərək Vətən yolunda şəhidlik zirvəsinə ucalmış övladlarının keçdikləri döyüş yolundan bəhs edib, onlarla fəxr etdiklərini bildiriblər. Şəhid anaları dövlətimizin və xalqımızın şəhid ailələrinə, Vətən Müharibəsi iştirakçılarına göstərdiyi diqqət və qayğıdan bəhs ediblər.

Qeyd edək ki, BDU-da Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış tələbə və məzunların, qəhrəman döyüşçülərin ailələri ilə müntəzəm görüşlər keçirilir.

# BDU-nun bir qrup kollektivi Vətən Müharibəsi şəhidlərinin məzarını ziyarət ediblər

***Bakı Dövlət Universitetinn bir qrup kollektivi 27 sentyabr - Anım Günü ərəfəsində II Şəhidlər Xiayabanında 44 günlük Vətən Müharibəsi şəhidlərinin məzarını ziyarət ediblər.*** Ziyarətdə BDU-nun Geologiya, Tarix və Mexanika-riyaziyyat fakültəsinin müəllim-tələbə heyəti iştirak edib. Ziyarətdə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, şəhidlərin məzarları önünə gül dəstələri qoyulub və ruhlarına dualar oxunub.

BDU əməkdaşları tələbələrə şəhidlərin Vətən torpağı uğrunda qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalmasından, onların Azərbaycan xalqının qəlbində daim yaşayacağı, gələcək nəsillər üçün örnək olacağından danışıblar.





# BDU-nun şəhid məzunu Nicat Əhmədovun xatirə lövhəsinin açılışı mərasimi keçirilib





***Bakı Dövlət Universitetinin məzunu, Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış Nicat Əhmədovun doğum günündə xatirə lövhəsinin açılış mərasimi keçirilib.*** Şəhid Nicat Əhmədovun təhsil aldığı 229 saylı orta məktəbdə təşkil olunan mərasimdə millət vəkilləri, rayon icra hakimiyyətinin nümayəndələri, şəhid anaları, ictimai xadimlər və BDU-nun bir qrup kollektivi və tələbələri iştirak edib.

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, şəhid Nicat Əhmədovun təhsil aldığı Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dekan müavini Kənan Vəkilov tədbirdə çıxış edərək Nicat Əhmədovun Vətən torpağı uğrunda qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalmasından qürur duyduqları bildirib, təhsil aldığı müddətdə nümunəvi tələbə kimi seçilən Nicat Əhmədovun həm müəllim heyətinin, həm də tələbə yoldaşlarının qəlbində daim yaşayacağı, gələcək nəsillər üçün örnək olacağını qeyd ediblər.

Şəhid Nicat Əhmədovun atası Həsən Əhmədov göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib və məhz dövlətimizin başçısının apardığı uğurlu siyasətin, ordu quruculuğunun və islahatların nəticəsində torpaqlarımızın düşmən tapdağından azad edildiyini vurğulayıb. Bu savaşda Vətən torpağı uğrunda rəşadətlə döyüşərək şəhid olan əsgər atası kimi fəxr etdiyini deyib.

Mərasimdə şəhidin döyüş yolundan danışılıb, onun haqqında xatirələr yada salınıb. Sonda 229 saylı məktəbin şagirdlərinin ifasında şeirlər səsləndirilib, səhnəciklər nümayiş etdirilib.

# Filologiya fakültəsində Anım Günü ilə əlaqədar şəhid Kənan Məmmədovun xatirəsi yad edilib

***Filologiya fakültəsində 27 Sentyabr - Anım Günü ilə əlaqədar fakültənin məzunu şəhid Kənan Məmmədovun xatirəsinə həsr olunmuş tədbir keçirilib. Tədbirdə fakültənin professor-müəllim heyəti, tələbələr, şəhidin ailə üzvləri və yaxınları iştirak ediblər.***

Öncə ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda igidlik göstərmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Giriş sözü ilə çıxış edən Filologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov xalqımızın müasir qəhrəmanlıq salnaməsinə çevrilmiş 44 günlük Vətən müharibəsində canlarından keçmiş gənclərimizin göstərdikləri şücaətdən söz açıb. Bildirib ki, fakültənin məzunu, Murovdağ istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalmış Kənan Məmmədov müəllimlərinin yaddaşında məsuliyyətli, dərslərinə ciddi yanaşan və mehriban bir tələbə portreti yaratmağı bacarıb. Bu gənc qəhrəman bundan sonra da həmişə dərin ehtiramla yad olunacaq, fakültəmizin hər bir müəllim və tələbəsi onun igidliyindən qürurla danışacaq.

Filologiya fakültəsinin tədris işləri üzrə dekan müavini Cavanşir Muradov Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun əsgər və zabitlərinin göstərdiyi qəhrəmanlıqlardan bəhs edib, şəhid Kənan Məmmədov haqqında xatirələrini danışıb.

Daha sonra BDU-nun Rus ədəbiyyatı tarixi kafedrasının əməkdaşları - dosent Solmaz Əliyeva, dosent Ramiz Bağırov, Təranə Məmmədova, Rus dilçiliyi kafedrasının professoru Sevinc Məhərrəmova, fakültənin akademik məsləhətçisi Natəvan Əliyeva, mərhumun tələbə yoldaşları - Kamran Qaraşov, Fəridə Abıyeva və Sevinc Əliyeva Kənan Məmmədovun nümunəvi tələbə kimi yüksək intizam və hazırlığı ilə seçilməsindən, dostlarına qarşı qayğıkeş və yardımsevər olmasından, hərbçi peşəsinə olan xüsusi marağından danışıb, şəhidlə bağlı xatirələrini bölüşüblər.

Sonda ailə üzvləri adından çıxış edən Anar Məmmədov qardaşı Kənan Məmmədovun şəxsi keyfiyyətlərindən, xüsusən vətən sevgisindən söz açıb, fakültə rəhbərliyinə və təşkilatçılara təşəkkürünü bildirib.

Qeyd edək ki, tədbirdə Kənan Məmmədova həsr olunmuş film və videoçarx nümayiş etdirilib, fakültənin II kurs tələbəsi Cahan Salmanovanın ifasında şeir səsləndirilib.

# “Vətən Müharibəsi Şəhidlərinin Anım Günü” münasibətilə ağacəkmə aksiyası



***Sentyabrın 27-də Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş Vətən müharibəsi şəhidlərinin Anım Gününə ehtiram əlaməti olaraq Yasamal Rayon İcra Hakimiyyəti və Bakı Dövlət Universitetinin birgə təşkilatçılığı ilə BDU-nun Tələbə şəhərciyinin ərazisində ağacəkmə aksiyası keçirilib.***

Ağacəkmə aksiyasında Vətən müharibəsinin iştirakçısı olmuş qazilər və zabitlər, şəhid valideynləri, Yasamal Rayon İcra Hakimiyyətinin, Yasamal rayonunun idarə və müəssisələrinin nümayəndələri, Bakı Dövlət Universitetinin rəhbərliyi və tələbələri iştirak ediblər.






# “Tariximizin ən parlaq səhifəsi” mövzusunda dəyirmi masa keçirilib




***Sentyabrın 24-də Tarix, Mexanika-riyaziyyat, Coğrafiya və Geologiya fakültələrinin birgə təşkilatçılığı ilə 27 sentyabr - Anım Gününə həsr olunmuş “Tariximizin ən parlaq səhifəsi” mövzusunda dəyirmi masa keçirilib.***

Giriş sözü ilə çıxış edən Geologiya fakültəsinin dekan müavini İlqar Quliyev Azərbaycanın müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm qələbənin tariximizin ən şanlı səhifəsi olduğunu vurğulayıb, Xalq olaraq şanlı Ordumuzun cəbhədə qazandıqları uğurlu nailiyyətlərlə, Ermənistan silahlı qüvvələrinə vurduqları sarsıdıcı zərbələrlə, azad etdikləri yaşayış məntəqələri ilə bütün dünyaya dövlətimizin gücünü, qüdrətini bir daha nümayiş etdirdiyini qeyd edib.

Daha sonra çıxış edən YAP Yasamal rayon təşkilatının sədri, BDU-nun dosenti Bəxtiyar Nəbiyev Ali Baş Komandanın rəhbərliyi altında 44 günlük Vətən müharibəsində şanlı tarix yazan oğullarımızın, şəhidlərimizin, qazilərimizin döyüş yolundan söz açaraq onların hər birinin fəxr, qürur yerimiz olduğunu bildirib. Azərbaycan xalqının fəxri olan şəhidlərimizin qəlblərdə daim əbədi yaşayacağını qeyd edib.

BDU-nun kafedra müdiri, professor Məqsəd Qocamanov, Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, Geologiya fakültəsinin dekan müavini Ruslan Şəmiyev, Vətən müharibəsi qazisi, BDU-nun məzunu Rasim Nəsibov çıxışlarında 44 günlük Vətən müharibəsindən, düşmən üzərində əldə edilən tarixi zəfərin önəmindən söz açıb, Vətən müharibəsində qazanılan zəfərin 30 illik erməni işğalına son qoyulduğu, əsrlər sonra da bu zəfərin qürurla anılacağını, tarixi zəfərin qazanılmasında xidmətləri olan şəxslərin ehtiram hissi ilə yad ediləcəyini bildiriblər.

Tədbirin sonunda tələbələrin ifasında şeirlər səsləndirilib, “Xudayar təsnifi” ifa edilib.

# Qanla yazılmış Şanlı Qələbə

***27 sentyabr 2020-ci il... Səhər saatları idi. O vaxta qədər hər şey qismən də olsa, yolunda idi. Düzdü, o günə qədər çox itkilər vermiş, çox atəşkəslərin pozulduğunun şahidi olmuşduq. Hər nə qədər bizim hələ xəbərimiz olmasa da, o gün böyük gün, geri dönüşün olduğu, dövranın döndüyü, həsrətin vüsala yetdiyi, sonun başlanğıca çevrildiyi gün idi. O gün Zəfərə gedən qətiyyətli, məğrur, geri dönüşü düşünülməmiş addımların atıldığı gün idi!***



Günə internetin kəsilməsi ilə başlamışdıq. Tam olaraq nə baş verdiyindən xəbərsiz idik. Həmin anlarda yolda olduğum üçün avtomobil və telefonumun radiosunu qoşdum. O an radionun hər dalğasında düşmənin yenidən atəşkəsi pozduğu, ordumuzun isə cavab həmləsi həyata keçirdiyi deyilirdi. Hər birimizin ürəyində qürur, fərəh, vətənpərvərlik hissləri daha da alovlanırdı. Amma qəribə bir hüzn də var idi. Çünki bilirdik ki, müharibə bizə çoxlu itkilər verib, ürəyimizə sağalmayan yaralar vuracaq. Keçmişdəki təcrübələrdən anlayırdıq ki, illər, əsrlər keçsə belə, qəlbimizdə bu yaraların izləri qalacaq, hər dəfə onlara toxunduqda yenidən qanayacaq. Evə doğru irəliləməkdə davam edirdik. Yol boyu tankların, əsgərlər, könüllülərlə dolu maşın kalonlarının irəlilədiyini görürdük. Bu dəfə hər şey fərqli idi, bu dəfə biz bütöv Azərbaycan olmaq uğrunda qəti şəkildə irəliləyirdik. Bəlkə də o gün o maşınlarda gedib bizə qürurla baxan əsgərlər son dəfə doğulub böyüdükləri evlərindən, doğma ocaqlarından ayrılmış, valideynlərinin əlindən, həyat yoldaşlarının alnından, bacı-qardaşlarının, övladlarının üzlərindən öpən, son dəfə onlara sarılan məğrur, şəhid qardaşlarımız imiş. O gün minlərlə ana oğlunun, minlərlə uşaq atasının qoxusunu sinəsinə çəkdi son olduğunu bilmədən... Bunları görərkən eyni zamanda ölkədə baş verənlərdən xəbərdar olmaq üçün radioya qulaq asmağa davam edirdik. Evə çatdıq və etdiyimiz ilk iş televizoru açmaq oldu. O an Müdafiə Nazirliyinin canlı brifinqi yayımlanırdı. Danışılanları daha yaxşı dinləmək üçün televizorun səsini artırdıq və hər birimiz sükuta qərq olmuşduq. Böyük bir həyəcanla şad xəbər eşitmək arzusunda idik. Və cəbhədən gözəl xəbərlər gəlirdi. Murov zirvəsi, Cəbrayıl və Füzuli rayonunun bir çox kəndləri qəsbkarların işğalından azad edilmişdi. Ordumuz tam gücü ilə irəliləməkdə davam edirdi. Hər gün cəbhədən xoş xəbərlər alırdıq. Bu xəbərləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ya televiziyada, ya da öz rəsmi tvitter hesabında xalqa çatdırırdı.

Hər günümüzü qələbə, sevinc dolu xəbərlərlə açırdıq. Amma bununla bərabər üzüntümüz də olurdu, çünki itkilərimiz də var idi. Dəfələrlə Minsk qrupunun üzvləri tərəflər arasında atəşkəs razılaşması əldə etsələr də, təcavüzkar düşmən yenidən təxribata əl atırdı. Atəşkəs elan olunduğu günlər düşmən Gəncə, Bərdə, Tərtər ərazisinə irihəcmli, dinc əhaliyə qarşı istifadəsi qadağan olunmuş silah və raketlərdən atəş açırdı. Çox üzülürdük, amma acımızı bir az da olsa, dindirəcək, ürəyimizdəki yanğına su səpəcək qələbə xəbərləri alırdıq. Bir-birinin ardınca işğal altında olan rayon, şəhər və kəndlərimiz azad edilirdi.

Nəhayət, gözlədiyimiz böyük gün gəldi. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri, Rusiya Federasiyasının Prezidenti tərəfindən 10 noyabr 2020-ci il 00:00-dan etibarən hərbi əməliyyatların tam dayandırılması haqqında bəyanat imzalandı. Bununla da xalqın qəlbindəki 30 illik həsrətə son qoyuldu.

Dünyanı lərzəyə salan 44 günlük müharibə bizə azadlıq gətirməklə bərabər ürəyimizi də paramparça etdi. Müharibə dövründə neçə-neçə qardaşlarımızı itirdik. O gün çox gözlər yaşlı qaldı və o yaş bu günə qədər qurumadı, tarix boyu da qurumayacaq. Qorxmaz Cəbrayıl, dastana dönən Xudayar və onlar kimi ürəyimizdə ömürlük məskən salan şəhid qardaşlarımızı, minlərlə qardaşın tək şəhid bacısı olan Arəstə Baxışovanı necə unuda bilərik?! Qazandığımız qələbəni şəhidlərimizə borcluyuq. Biz şəhidlərimizin, qazilərimizin, əsgərlərimizin borcunu heç bir zaman ödəyə bilmərik. Qazandığımız zəfər nəticəsində şəhidlərimizin qanı yerdə qalmadı, indi onların ruhu şaddır! Tariximizi unutmamalı və eyni hadisələrin yaşanmağına icazə verməməliyik! Şəhidlər ölməz, Vətən bölünməzdir! Bu çətin, qürurlu, fəxrli, hüznlü günləri, bizim suverenliyimiz uğrunda canından keçən məğrur şəhid qardaşlarımızı unutmayaq və unutdurmayaq!

***Dinarə Ağayeva,***
*Jurnalistika fakültəsinin*
*I kurs tələbəsi*

# BDU-da Nizami Gəncəvi adına xüsusi təqaüd təsis edilib

***2021-ci ildə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 880 illiyi qeyd olunur.*** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 5 yanvar tarixli Sərəncamı ilə qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətini nəzərə alaraq 2021-ci ili ölkəmizdə “Nizami Gəncəvi İli” elan edib. Bu istiqamətdə Bakı Dövlət Universitetində “Nizami Gəncəvi İli” ilə bağlı Tədbirlər Planı hazırlanıb. Tədbirlər Planına müvafiq olaraq, Nizami Gəncəvinin zəngin irsinin öyrənilməsi və tələbə gənclər arasında geniş təşviq edilməsi istiqamətində BDU-da bu günə qədər 20-dən çox elmi seminar, layihə, müsabiqə, dəyirmi masa, konfrans və s. həyata keçirilib, kütləvi informasiya vasitələrində işıqlandırılıb.



Tədbirlər Planına uyğun olaraq 2021-ci ilin Azərbaycanda “Nizami Gəncəvi ili” elan edilməsi münasibətilə 2020/2021-ci tədris ili üçün BDU-da Nizami Gəncəvi adına xüsusi təqaüd təsis edilib. Hər fakültədən bir tələbə olmaqla, Filologiya və Şərqşünaslıq fakültələri üzrə bakalavriat pilləsində əyani formada təhsil alan 2020/2021-ci tədris ilinin II semestr üzrə ən yüksək nəticə göstərən tələbələrinə Nizami Gəncəvi adına təqaüd veriləcək.

# Anım Gününə həsr olunmuş "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçirilib

***Yasamal Rayon Gənclər və İdman İdarəsinin rəisi İlham Səfərov yarışmanın rəsmi açılış mərasimində çıxış edərək 44 günlük Vətən müharibəsində müzəffər ordumuzun öz tarixi missiyasını yerinə yetirərək 30 ilə yaxın müddət ərzində işğal altında olan torpaqlarımızı qəhrəmanlıq nümayiş etdirərək düşmən tapdağından azad etdiyini bildirib. Qeyd edib ki, Vətən müharibəsində qəhrəmanlıq göstərmiş şəhidlərimizin xatirəsini yaşatmaq və gənclər arasında təbliğ etmək idarə qarşısında duran başlıca vəzifələrdəndir.***



BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov çıxışında bildirib ki, 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan xalqı ordu və dövlətimizin ətrafında yumuruq kimi birləşərək həmrəylik göstərdi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Ordumuz tərəfindən torpaqlarımız düşməndən azad olundu. Şanlı Qələbənin qazanılması naminə canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi xalqımız tərəfindən daim ehtiramla anılacaq.

Gərgin mübarizə şəraitində keçən bilik yarışmasının qalibi adını Azərbaycan Dillər Universitetinin komandası qazanıb. Müvafiq olaraq II və III yerlərə isə Bakı Dövlət Universitetinin və Azərbaycan Dövlət İqtisad Universitetinin komandası layiq görülüb.

# BDU-da təhsil alan əcnəbi tələbələr Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər

***Bakı Dövlət Universitetində təhsil alan əcnəbi tələbələr və Xarici tələbələrlə iş şöbəsinin əməkdaşları Şəhidlər xiyabanını və Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər.*** Yürüş zamanı əcnəbi tələbələrə Azərbaycan Respublikasının müstəqillik tarixindən, Ümummilli lider Heydər Əliyev və onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Azərbaycan tarixində misilsiz xidmətlərindən bəhs edilib.



Mali, Çin, Qazaxıstan, Qambiya, İndoneziya, Malavi, Misir və Qırğızıstandan olan tələbələr Şəhidlər xiyabanında ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarını fəda etmiş qəhrəman şəhidlərimizin məzarları üzərinə qərənfillər düzüb, müqəddəs şəhidlərimizin xatirəsini hörmət və ehtiramla anıblar.

# 6 Sentyabr - Dünya şöhrətli alim Lütfi Zadənin anım günüdür

***Dünya şöhrətli azərbaycanlı alim, qeyri-səlis çoxluqlar və qeyri-səlis məntiq nəzəriyyələrinin banisi professor Lütfi Zadənin anım günüdür. Dahi alimin vəfatından dörd il ötür.***



1921-ci il fevralın 4-də Bakıda anadan olan Lütfi Rəhim oğlu Ələsgərzadə ibtidai təhsilini 16 nömrəli orta məktəbdə başa vurub. 1932-ci ildə Ələsgərzadələr ailəsi İrana köçüb. Burada orta təhsilini başa vuran Lütfi Zadə Tehran Universitetinin elektrik mühəndisliyi fakültəsinə qəbul olunub. Universiteti müvəffəqiyyətlə bitirdikdən sonra o, 23 yaşında ABŞ-a gedib və təhsilini Massaçusets Texnologiya İnstitutunda davam etdirib. Onun dünya elminə məlum olan altı mühüm nəzəriyyəsinin bünövrəsi də elə orada qoyulub.

Lütfi Zadə 1944-cü ildən 1959-cu ilədək Massaçusets Texnologiya İnstitutunda və Kolumbiya Universitetində magistr, doktorluq elmi dərəcələrini alıb. 1959-cu ildən Berkli Universitetində çalışıb, 1963-cü ildən isə elektrik mühəndisliyi və kompüter elmləri kafedrasına rəhbərlik edib. O, həmin ali təhsil ocağında ömürlük professor və “Soft Computing” İnstitutunun direktoru kimi fəaliyyət göstərib.

Azərbaycanlı alimə dünyada şöhrət qazandıran və istehsalatda geniş tətbiq edilən, eyni zamanda, dünya elmində inqilab sayılan qeyri-səlis məntiq (Fuzzy Logic) nəzəriyyəsi olub. Bu nəzəriyyə riyaziyyatın əsası olan ikili çoxluq anlayışına yeni ifadə verib: qeyri-səlis çoxluq. Elmdə qeyri-səlis ölçünün daxil edilməsi təbiətdə və cəmiyyətdə cərəyan edən proseslərin qeyri-müəyyənliyini daha adekvat nəzərə almağa imkan yaradıb. Yaponiyanın “Mitsubishi”, “Toshiba”, “Sony“, “Canon“, “Sanyo“, “Nissan“, “Honda” və digər nüfuzlu şirkətləri qeyri-səlis məntiq texnologiyasından foto və videokameralar, paltaryuyan maşınlar və vakuum kimyəvi təmizləyicilərinin istehsalında, avtomobillərin, qatarların, sənaye proseslərinin idarə olunmasında geniş istifadə edirlər. Alim, həmçinin “Təəssüratlar nəzəriyyəsi”, “Sistemlər nəzəriyyəsi”, “Sözlə işləyən kompüter nəzəriyyəsi”, “Optimal süzgəclər nəzəriyyəsi” kimi dünya elminin inkişafında, onun yeni əsaslar üzərində qurulmasında mühüm rol oynayan elmi kəşflərin müəllifidir.

Onun haqqında “Müasir elmin korifeyi”, “Dünya dahilərsiz yaşaya bilmir” kitabları yazılıb, “Uzaq və yaxın Lütfi Zadə” sənədli filmi çəkilib, Lütfi Zadə İrsi və Süni İntellekt Assosiasiyası, Lütfi Zadə adına Beynəlxalq Müasir Elmlər Akademiyası yaradılıb.

Alimin məşhur vəziyyətlər fəzası, dinamik sistemlərin idarəolunma və müşahidəolunma nəzəriyyələri müasir idarəetmə elminin əsasını təşkil edir. ABŞ-ın Milli Kosmik Tədqiqatlar Mərkəzi (NASA) bu nəzəriyyələr əsasında idarəetmə sistemlərini tədqiq edir, layihələndirir və tətbiqini həyata keçirir.

***Lütfi Zadənin zəngin elmi fəaliyyəti Azərbaycan dövləti tərəfindən də hər zaman yüksək qiymətləndirilib. 2011-ci ilin fevralında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən dünya şöhrətli alim texnologiyaların inkişafına verdiyi töhfələrlə mədəniyyətlərarası dialoqun qurulmasında göstərdiyi xidmətlərinə görə “Dostluq” ordeni ilə təltif edilib. 2021-ci il yanvarın 21-də isə dövlət başçısı “Görkəmli elm xadimi Lütfi Zadənin 100 illiyinin qeyd edilməsi haqqında” Sərəncam imzalayıb.***

Lütfi Zadə Berkli Universitetinin ömürlük professoru seçilmiş yeganə şəxs idi. O, NASA və NATO-nun aparıcı mütəxəssisi olub. Həmçinin yaşadığı Berkli şəhərində öz adına olan “İnstitute Zadeh-ZIFT” İnformasiya Texnologiyaları İnstitutuna rəhbərlik edib. Lütfi Zadə alman alimi Maks Plankdan sonra dünyada ikinci alimdir ki, sağlığında həm özünün, həm də nəzəriyyəsinin adını daşıyan elmi mərkəz yaranıb. Lütfi Zadə dünyada əsərlərinə ən çox istinad edilən alimlərdən sayılır. Təkcə 1990–2000-ci illərdə onun əsərlərinə 36 mindən çox istinad edilmişdir.

Bir çox xarici ölkə akademiyalarının üzvü olan Lütfi Zadə çoxlu sayda mötəbər cəmiyyətlərin və fondların mükafatlarına layiq görülüb, medallarla təltif edilib. Onlarla xarici dövlət və ictimai təşkilatların, o cümlədən Bakı Dövlət Universitetinin fəxri doktoru olub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Görkəmli elm xadimi Lütfi Zadənin 100 illiyinin qeyd edilməsi haqqında” 2021-ci il 21 yanvar tarixli Sərəncamına müvafiq olaraq Bakı Dövlət Universitetində görkəmli alimin yubileyinin geniş şəkildə qeyd olunması üçün Tədbirlər Planı tədqiq edilib. Tədbirlər Planına müvafiq olaraq alimin elmi tədqiqatlarına həsr olunmuş silsilə seminarlar, konfranslar, müsabiqələr və s. keçirilir.

# 15 Sentyabr - Bilik Günüdür

***15 sentyabr tarixi ölkəmizdə Bilik Günü kimi qeyd olunur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 21 avqust tarixli fərmanı ilə Azərbaycanın bütün təhsil müəssisələrində dərslərin 15 sentyabrdan başlanması qərara alınıb və beləliklə həmin ildən etibarən 15 sentyabr tarixi Azərbaycanda Bilik Günü kimi qeyd olunmağa başlayıb.*** Təhsilə dövlət qayğısı, aparılan uğurlu təhsil islahatları, Heydər Əliyev Fondunun müvafiq istiqamətdə həyata keçirdiyi sosial layihələr nəticəsində son illər Azərbaycan təhsili yeni inkişaf dövrünə qədəm qoyub. Bu gün təhsil sisteminin bütün pillələri üzrə dövlət proqramları uğurla həyata keçirilir.




Tarix boyu elmə, biliyə yiyələnmək və onu tədris etmək şərəfli iş hesab olunub. Azərbaycan ali məktəblərinin flaqmanı, şərəfli keçmişə, zəngin təcrübəyə malik, ənənə ilə müasirliyin vəhdətini özündə ehtiva edən Bakı Dövlət Universiteti mövcud təcrübə və ənənələri daha da möhkəmləndirmək, ölkənin peşəkar kadr və elmi potensialını zənginləşdirmək məramı ilə yeni dərs ilinə qədəm qoyur. Təəssüflər olsun ki, COVID-19 pandemiyası səbəbindən müəyyən zaman kəsiyində həmişəkindən fərqli olaraq, professor-müəllim heyətini və tələbələrimizi Universitet auditoriyalarında deyil, monitor qarşısından salamlamalı olsaq da, 29 sentyabr tarixindən yenidən ənənəvi tədris prosesinə geri qayıdırıq.

BDU-da tədrisin təkmilləşdirilməsi, müasir standartlara uyğunlaşdırılması, dövrün tələblərinə uyğun kadrların hazırlanması istiqamətində aparılan fəaliyyətin tərkib hissəsi olaraq, bu il bakalavr və magistratura səviyyələri üzrə yeni ixtisas və ixtisaslaşmalar açılıb. Yeni ixtisasların yaradılması həm də əmək bazarında bu ixtisaslara olan tələbatın ödənilməsi zərurətindən yaranıb.

Bundan əlavə Universitetin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm işlər görülüb, müasir tələblərə cavab verən, bütün zəruri avadanlıqlarla təchiz olunmuş yeni Tələbə Evi, Tələbə Elmi Yaradıcılıq Mərkəzi tam hazır vəziyyətə gətirilib.

Universitetin beynəlxalq layihələrdə iştirakı, beynəlxalq əlaqələrinin möhkəmləndirilməsi, ikili diplom proqramlarının miqyasının genişləndirilməsi istiqamətində bir sıra xarici ali təhsil müəssisələri ilə danışıqlar aparılıb, birgə layihələrin həyata keçirilməsi məqsədilə hazırlıq işlərinə başlanılıb.

Bu il BDU-da eləcə də təhsilin keyfiyyətini artırmaq üçün beynəlxalq "BLACKBOARD" elektron təhsil sisteminin tətbiqinə başlanılıb. "Blackboard" - tədrisin idarəedilməsi proqramının istifadəsi BDU-da "Blackboard EdTech" ekosisteminə daxil olan "bulud platforması" vasitəsilə tələbələrin və müəllimlərin elektron məlumat bazasının yaradılması, tədris prosesinin və təhsilin məzmununun elektron idarəedilməsi, elektron qiymətləndirmə və digər tədris proseslərinin elektronlaşdırılmış həllinə imkan yaradır.

***Tarixdə ilk dəfə Bakı Dövlət Universiteti Dünya universitetlərinin reytinqi (World University Rankings) siyahısında yer alıb. Builki siyahıda dünyanın ən nüfuzlu universiteti sırasında Bakı Dövlət Universitetinin qərarlaşmasının qürurunu yaşayırıq.***

Bütün bunlar yeni tədris ilində tələbələrimizin peşəkar mütəxəssislər kimi formalaşmasında, elmin sirlərinə yiyələnməsində mühüm rol oynayacaqdır.

*Hörmətli müəllimlər, əziz tələbələr, yeni tədris ilində sizə uğurlar arzulayırıq!*

*Bilik Gününüz mübarək!*

# 15 sentyabr – Bakının erməni işğalından azad edilməsi günüdür

## Bakının erməni-bolşevik işğalından azad edilməsi XX əsr Azərbaycan tarixinin şanlı səhifələrindən biridir

***Sentyabrın 15-i Bakının işğalçı erməni-bolşevik birləşmələrindən azad olunduğu gündür. 1918-ci il sentyabrın 15-də Azərbaycan və türk əsgərləri Bakını bolşevik-daşnak işğalından azad ediblər. Bununla da müstəqilliyini təmin edən Azərbaycanda ermənilərin və bolşeviklərin Bakı və ətraf rayonlardakı ağalığına son qoyulub.***

Bakının erməni-bolşevik işğalından azad edilməsi XX əsr Azərbaycan tarixinin şanlı səhifələrindən biridir. 1918-ci ilin mayında Azərbaycanın müstəqilliyinin elan olunmasına baxmayaraq, ölkə ərazisinin bir hissəsi, Bakı və ətraf rayonlar erməni-bolşevik işğalı altında idi. Belə bir şəraitdə özünün çox ağır vəziyyətinə rəğmən Osmanlı Türkiyəsi qardaş Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə Nuru paşanın komandanlığı ilə hərbi qüvvələrini Azərbaycana göndərdi. Sentyabrın 15-də Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Bakını işğalçılardan azad etdi. Osmanlı qoşunları bu döyüşlərdə 1130 şəhid verdi. Bu tarixi hadisədən sonra Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı Gəncədən Bakıya köçürüldü. Bir sıra Avropa dövlətlərinin türk qoşunlarının Azərbaycana gəlməsinə qarşı çıxmasına baxmayaraq qardaş köməyini əsirgəməyən Osmanlı Türkiyəsi 1918-ci ilin avqust-sentyabr aylarında öz tarixi missiyasını şərəflə yerinə yetirdi.



Azərbaycan növbəti dəfə müstəqillik qazandıqdan sonra ölkəmizdə hər il sentyabrın 15-i bu şanlı tarix qeyd edilir, şəhidlərin xatirəsi anılır. 103 il bundan əvvəl yaşanan bu şanlı tarixi, Azərbaycan və türk əsgərlərinin Bakını düşmən işğalından azad edərək tariximizə yazdıqları bu şərəfli gün həm də Türkiyə - Azərbaycan qardaşlığının rəmzinə çevrilib.

# Milli Musiqi Gününə həsr olunmuş kompozisiya hazırlanıb

***17 sentyabrda Bakı Dövlət Universitetinin Mədəniyyət-yaradıcılıq Mərkəzi Azərbaycan bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəylinin doğum günü və 18 sentyabr - Milli Musiqi Günü münasibətilə ədəbi-bədii kompozisiya hazırlayıb.***



Kompozisiya Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Kompozisiyada Ü.Hacıbəylinin "Aşıq Cünün" havası, "Arşın mal alan" operasından "Aşiq oldum" ariyası, "Qaragöz" musiqisi, "Arşın mal alan" operasından rəqs, "Koroğlu" uvertürası təqdim olunub.

# BDU-da təhsil almaq üçün müraciət edən əcnəbi tələbələrin sayı 2 dəfə artıb

***Son illər Bakı Dövlət Universitetində təhsilin beynəlmiləşməsi istiqamətində islahatların aparılması, beynəlxalq əlaqələrin genişləndirilməsi, yeni əməkdaşlıqların qurulması, dünyanın bir sıra aparıcı universitetləri ilə ikili diplom proqramları üzrə kadr hazırlığının həyata keçirilməsi ilə bağlı ciddi addımlar atılmışdır.*** Eyni zamanda, tədris prosesinin təkmilləşdirilməsi, bu işdə yeni metod və texnologiyaların, "Blackboard" kimi beynəlxalq təhsil platformasının tətbiqi, BDU-nun "QS və Times Higher Education (THE)" kimi dünyanın məşhur reytinq siyahılarında ən yüksək göstəricilərə malik ali təhsil müəssisələri arasında yer alması Universitetdə təhsil almaq istəyən əcnəbi tələbələrin sayının artmasına səbəb olmuşdur. Belə ki, 2021/2022-ci tədris ilində BDU-ya qəbul olmaq üçün müraciət edən tələbələrin sayı ötən tədris ili ilə müqayisədə 2 dəfə artmışdır. Cari ilin iyul-avqust aylarında 27 ölkədən 200-dən çox əcnəbi tələbə qeyri-dövlət xətti ilə BDU-da təhsil almaq üçün müraciət etmişdir. Müqayisə üçün keçən il bu göstərici 15 ölkə ilə məhdudlaşırdı.

# "Bakı Universiteti" qəzeti 92 yaşında...

**Azərbaycanımızın ilk ali təhsil müəssisəsi olan Bakı Dövlət Universiteti yarandığı 1919-cu ildən bu günədək xalqın xidmətində olmuş, ölkəmiz və bir çox xarici ölkələr üçün minlərlə kadr hazırlamışdır. BDU həmişə öz fəaliyyətində yeniliyə can atmış, elm və təhsil sahəsində dünyanın ən vacib təcrübəsinə söykənmişdir. Onun məzunları sırasında Ümummilli Liderimiz Heydər Əliyev kimi dünya şöhrətli bir dövlət xadimi var.** Universitetimizin xalqa göstərdiyi böyük xidmətlərə istinadən Heydər Əliyev bu elm və tədris ocağını Azərbaycan xalqının milli sərvəti kimi qiymətləndirmişdir. Ümummilli Liderimizin BDU haqqında belə bir fikri indi dillər əzbəridir: "Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam".

Müstəqil Azərbaycan dövlətinin banisi və onun müqəddəs dövlətçilik məktəbinin uğurlu davamçısı Prezident İlham Əliyev Bakı Dövlət Universitetinə daima diqqət və qayğı göstərmişdir. Hazırda Universitetdə ciddi islahatlar aparılır. Bu islahatların gerçəkləşməsi və təbliği işində 92 yaşlı "Bakı Universiteti"nin fəaliyyətini diqqətdə saxlayan rəhbərlik bu çoxtirajlı qəzetin də yenidən qurulmasına nail olmuşdur.

Bu günkü nəsil üçün bir Universitet qəzetinin "çoxtirajlı" adlandırılması qəribə görünə bilər. Necə olur ki, yüz min tirajla çap olunan qəzetlərə deyil, min nüsxə tirajla nəşr olunan qəzetinə "çoxtirajlı" epiteti verilir? Məsələ burasındadır ki, sovet hakimiyyətinin ilk illərində miqyası ilə seçilən fabrik-zavodlarda, Universitetlərdə nəşr edilməyə başlayan qəzetlər bu müəssisələrdəki divar qəzetlərini əvəz etdi və əgər "divar" qəzeti cəmi bircə nüsxə olub müəssisənin adam çox olan yerində divara yapışdırılırdısa, indi onu rektoqraf vasitəsilə çap edilən qəzetlər əvəz edirdi. Bu qəzetlərin tirajı divar qəzetlərilə müqayisədə çox olurdu və ona görə də onlara "çoxtirajlı" adı verilmişdi. Sovet İttifaqında belə qəzetlər 1920-ci illərdə meydana gəlib. Sonralar həm də "sahə qəzetləri" kimi adlanan bu mətbuat orqanları sırasında Bakı Universitetinin çoxtirajlı qəzeti də layiqli yer aldı. Bu qəzet öz fəaliyyəti dövründə müxtəlif adlarla nəşr edilib: "Student", "Lenin tərbiyəsi uğrunda" və müstəqillik illərindən başlayaraq "Bakı Universiteti" adı ilə nəşr edilməkdədir.

***"Bakı Universiteti" 27 minlik bir kollektivin qəzetidir. Onun əsas müəllifləri bu Universitetin müəllimləri və tələbələridir.***




Bir daha xatırladaq ki, BDU-da aparılan islahatlar çərçivəsində bu qəzetin də daha səmərəli bir media nümunəsi olması üçün zamanın nəbzinə uyğun yeni tədbirlər həyata keçirildi.

Hər şeydən əvvəl qəzetin mövzu dairəsi diqqətdən keçirildi. "Bakı Universiteti"nin XXI əsrin çağırışlarına uyğun dizayn formatı yaradıldı. Qəzetin buraxılışı BDU-nun Jurnalistika fakültəsinə tapşırıldı. Çapı da Bakı Dövlət Universitetinin mətbəəsinə həvalə edildi və yüksək səviyyədə nəşr olunmağa başladı.

"Bakı Universiteti" qəzetinin loqosu yeniləndi. Əlbəttə, loqoda qəzetlərə xas olan ənənəvi çıxış nöqtələri yerləşdirildi. Qəzetin 1-ci səhfəsinin lap yuxarısında Ulu Öndərimizin bu sözləri əbədi olaraq öz yerini tapdı: "Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam"

**Heydər Əliyevin daha bir fikri qəzetin adının altında yer alıb: "Milli tərəqqi elm və təhsil ocağından başlayır". Ulu Öndərin bu fikri "Bakı Universiteti" qəzetinin ümumi fəaliyyət konsepsiyasının açarıdır.**

Qəzetin 2019-2021-ci il buraxılışlarına ardıcıl olaraq diqqət yetirilsə görünəcək ki, "Heydər Əliyev-milli varlığımızın xilaskarı kimi", "15 iyun-Milli Qurtuluş Günüdür", "Ulu Öndərin Azərbaycanda siyasi hakimiyyətə gəlməsinin 51-ci il dönümünə həsr olunmuş onlayn tədbir", "18 oktyabr-Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür" və s. publisistik yazıların hamısında Ulu Öndərin xalqa xidmət motivləri var.

"Bakı Universiteti", əlbəttə elm və təhsil ocağının qəzetidir. Lakin qəzetdə aparılan mövzuya baxış islahatı belə bir fəaliyyət xəttinə gətirmişdir ki, Universitet kollektivi üçün nəşr edilən bu qəzet BDU-nun daxili fəaliyyətini ölkəmizdə ümumi dövlətçilik fəaliyyəti ilə uzlaşdırmaq xəttini əsas götürmüşdür. Məsələn, "Bakı Universiteti" qəzeti 44 günün Vətən müharibəsindəki hadisələri - Universitet məzunlarının əsgər həyatı, parlaq qələbəmizi qazanmış ordumuz, Ali Baş Komandan, BDU-nun ordumuza köməyi, şəhidlər və s. kimi vacib mövzuları öz səhfələrinə çıxarmışdır. Bütövlükdə milli qəhrəmanlarımız, qazilərimiz, əsgərlərimiz qəzetin əsas mövzuları sırasında yer almış və almaqdadır.

Milli tariximizin ən müasir hadisələri - 20 yanvar qətliamı, Xocalı soyqırımı, bütövlükdə Ermənistanın bizə qarşı xəyanətkar terrorları qəzetin aparıcı mövzular kimi qeyd olunmalıdır.

Hər bir Universitetin Elmi Şurası bu təhsil ocağının ali idarəetmə orqanıdır. BDU Elmi Şurasının fəaliyyətini hər zaman diqqətdə saxlayan qəzet həm də bu qərarların dinamikasını, səmərəsini, yerinə yetirilməsi səviyyəsini işıqlandırır.

"Bakı Universiteti" 27 minlik bir kollektivin qəzetidir. Onun əsas müəllifləri bu Universitetin müəllimləri və tələbələridir. Əlbəttə, desək ki, hər şey rəhbərliyin fəaliyyətindən asılıdır, səhv etmərik. BDU-nun rektoru Elçin Babayev həm bir rəhbər kimi, həm də elmə, tədrisə, ölkə həyatına çox-çox istedadla yanaşan bir alim kimi tanınır. Onun Vətən müharibəsi dövründəki ardıcıl publisistikası maraqlı mövzularla zəngindir. Azərbaycanda koronavirusla mübarizədə dövlət səviyyəsində görülən tədbirlərə həsr olunan "Bizi məharətli idarəçilik, birlik və həmrəylik xilas edir" ( 21 may), Vətən müharibəsindəki zəfərimizə həsr olunmuş "Qarabağın fəthi Xalq-Komandan-Ordu birliyinin qələbəsidir" (27 noyabr), İlham Əliyevin zəfərimizdəki rolunu təhlil edən "Hər bir azərbaycanlının Prezidenti", Azərbaycan gəncliyinə mənəvi dəstək verən "Gənclərimiz elm və təhsilin davamlı inkişafının hərəkətverici qüvvəsidir" və s. kimi dərin məzmunlu elmi-publisistik məqalələri "Bakı Universiteti" qəzeti ilə bərabər respubilkamızın ən populyar media orqanlarında da dərc olunub.

Azərbaycan elm və təhsil sistemində ən qabaqcıl bir ocaq kimi tanınan BDU dünyanın bir çox aparıcı Universitetləri ilə birgə fəaliyyət memorandumları imzalayır.

Qəzetin işinə yaxından kömək edən və həm də onun müəllifi kimi müxtəlif mövzulu yazıları diqqətə çəkən alimlərimiz çoxdur.

"Bakı Universiteti" qəzeti 1000 nüsxə tirajla bütün fakültələrdə tələbələr arasında pulsuz paylanır. Onun səhifələrində zaman-zaman bu fakültələrin elmdə, tədrisdə tanınan müəllimləri haqqında da portret yazılar yer alır.

Bir sözlə, "Bakı Universiteti" BDU-nun ən sınanmış tarix mənbəyidir. Bu mənbə yəqin ki, həm də tarixçilərimizin, jurnalistlərimizin tədqiqat obyekti olacaqdır.

**Günel Mehdizadə**
Jurnalistika fakültəsinin
məzunu

# BDU-da yeni tədris ili ilə əlaqədar qabaqlayıcı və preventiv tədbirlər intensivləşdirilib

***Yeni tədris ilinin başlanması ilə əlaqədar Bakı Dövlət Universitetində tibbi-profilaktik vəziyyətə nəzarət gücləndirililib, dezinfeksiya işləri və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi intensivləşdirilib.***

BDU-nun giriş qapılarında, həyətində, auditoriyalarda, sanitar qovşaqlarda, dəhlizlərdə, yataqxanalarda, yeməxanalarda və s. COVID-19 infeksiyası ilə mübarizə üsullarını əks etdirən maarifləndirmə posterləri, nişan və göstəricilər yerləşdirilib, giriş qapılarında, tədris binalarının, elmi-tədqiqat institutlarının və yataqxanaların xüsusi ayrılmış yerlərində ən müasir dezinfeksiya tunelləri, turniketlər, avtomatlaşdırılmış hərarət ölçən və tibbi maskanın taxılmasına nəzarət edən cihazlar quraşdırılıb, sanitar qovşaqlarda əl dezinfeksiyaedici məhlullar və digər gigiyenik vasitələr yerləşdirilib.




"Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"nın tələblərinə riayət edilməsinə operativ nəzarətin təşkil edilməsi məqsədilə yaradılmış komissiya profilaktik və preventiv tədbirlərin əks olunduğu daxili tədbirlər planına müvafiq olaraq əyani (ənənəvi) formada tədris və təlim-tərbiyə prosesinin təşkilinə dair tələblərin, tədris və təlim-tərbiyə prosesinin iştirakçılarının sağlamlığının qorunması üçün sanitariya və gigiyena qaydalarına əməl olunmasının təmin edilməsi üçün bütün zərur tədbirlərin yerinə yetirilməsinə nəzarəti gücləndirib. Təmizlik və dezinfeksiya tədbirlərinin davamlı olaraq qeydiyyatının aparılması üçün gündəlik nəzarət formaları və keyfiyyətə nəzarət cədvəlləri tərtib edilib.

BDU-nun ərazisində yerləşən 30 nömrəli poliklinikada COVID-19 infeksiyasına yoluxma şübhəsi olan tələbələrin təcrid olunması üçün iki xüsusi otaq ayrılmış, lazımi vəsait və avadanlıqlarla təchiz edilmişdir. Poliklinkanın həkimləri mütəmadi olaraq COVID-19-la mübarizə məqsədilə tələbələrlə maarifləndirici tədbirlər keçirəcəklər.

# "Motivasiya" klubunun növbəti təlimi keçirilib

***Bakı Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatının nəzdində fəaliyyət göstərən Motivasiya klubunun "İnsan necə dəyişə bilər" adlı növbəti təlimi keçirilib.***

Təlimçi, Kİtabxanaçılıq və informasiya fakültəsinin tələbəsi Nərmin Sadıqova tələbələrə pis vərdişlərdən uzaq olmaq, özümüzü inkişaf etdirmək, özgüvəni artırmaq haqqında danışıb, həmçinin hədəflərə çatmaq və yüksək nəticələr əldə etmək üçün motivasiyanın vacibliyi və ondan istifadə qaydaları haqqında ətraflı məlumat verib.

Təlimçi şəxsi inkişaf, motivasiya və gənclərin hərtərəfli biliyə sahib olması, müstəqil düşünməsi, özünəinam, şəxsi inkişaf və məqsədlərin müəyyənləşdirməsi, dünyagörüşün formalaşdırılması bəhs edib.

Həmçinin, diqqətin toplanması, çətin situasiyalarda daxili harmoniyanı qorumaq, stressi idarə etmək və s. bəhs olunub, müzakirələrdə iştirakçıların sualları cavablandırılıb.

# "Türkmənistan və Azərbaycan: ikitərəfli tərəfdaşlığın strateji mahiyyəti " mövzusunda onlayn konfrans keçirilib

***Sentyabrın 24-də Türkmənistan Respublikasının müstəqilliyinin 30-cu ildönümü ilə əlaqədar Türkmənistanın Bakıdakı səfirliyinin təşkilati dəstəyi ilə Məhtimqulu adına Türkmən Dövlət Universiteti ilə Bakı Dövlət Universiteti arasında "Türkmənistan və Azərbaycan: ikitərəfli tərəfdaşlığın strateji mahiyyəti " mövzusunda onlayn konfrans keçirilib.***

Konfransda BDU-nun rektoru Elçin Babayev, Məhtimqulu adına Türkmən Dövlət Universitetinin rektoru Bayramgül Orazdurdyeva, Türkmənistanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Mekan İşanquliyev, Azərbaycan Respublikasının Türkmənistandakı səfirliyinin müşaviri Mikayıl Yusifov, hər iki universitetin professor-müəllim heyəti və tələbələri iştirak edib.

Onlayn konfrans zamanı dövlətlərarası əməkdaşlıq məsələləri, iki ölkə arasında məhsuldar tərəfdaşlığın daha da inkişaf etdirilməsi üçün prioritet istiqamətlər müzakirə edilib. İştirakçılar həmçinin, elmi-texniki, mədəni və humanitar əməkdaşlığın genişləndirilməsi məsələlərinə və universitetlərarası əlaqələrin perspektivli sahələrinə xüsusi diqqət yetirib.

İştirakçılar gələcəkdə ali təhsil müəssisələri arasında əməkdaşlığın inkişafı üçün geniş imkanlar yaradacaq oxşar görüşlərin keçirilməsinin əhəmiyyətini vurğulayıblar.

# BDU-nun "Azərsu" ASC-nin "Sukanal" ETLİ-də fəaliyyət göstərən filialında yeni tədris ilinə hazırlıq müzakirə olunub

***Sentyabrın 10-da Bakı Dövlət Universitetinin Hidrometeorologiya kafedrasının "Azərsu" ASC-nin "Sukanal" Elmi-Tədqiqat və Layihə İnstitutunda ("Sukanal" ETLİ) fəaliyyət göstərən filialında 2021-2022-ci tədris ilində tədrisin təşkilinə həsr olunmuş görüş keçirilib.*** Görüşdə BDU-nun tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov, Tədrisin təşkili şöbəsinin müdiri Adil Xasayev, "Sukanal" ETLİ-nin direktoru Vüqar Mirzəyev, direktor müavinləri Rəşail İsmayılov, Elnur Nəsirov və institutun əməkdaşları iştirak edib.

Görüşdə yeni tədris ilində filialın fəaliyyəti, filialda tədris prosesinin, tələbələrin istehsalat təcrübəsinin təşkili müzakirə olunub. Fərda İmanov Universitetdə təhsil sahəsində həyata kerilən islahatlar, tədris prosesində tətbiq edilən yeni interaktiv təlim texnologiyaları haqqında məlumat verib.

Vüqar Mirzəyev "Sukanal" ETLİ-də BDU-nun Hidrometeorologiya kafedrasının filialında su ehtiyatlarının inteqrasiyalı idarə edilməsi ixtisaslaşması üzrə təhsil alan magistrantlar üçün yaradılmış şərait haqqında danışmış, filialda tədris olunacaq fənlərin siyahısı və dərs cədvəlinin artıq razılaşdırıldığını qeyd etmişdir.

Görüşdə BDU və "Sukanal" ETLİ arasında əməkdaşlığın inkişaf etdirilməsi və birgə elmi araşdırmaların yerinə yetirilməsi haqqında da fikir mübadiləsi aparılmışdır.

# Seysmologiya və Yer təkinin fizikası kafedrasının filialında yeni tədris ilinə hazırlıq məsələləri müzakirə olunub

***Sentyabrın 21-də Seysmologiya və Yer təkinin fizikası kafedrasının AMEA-nın Geologiya və Geofizika İnstitutunda fəaliyyət göstərən filialında 2021/2022-ci tədris ilində tədrisin təşkilinə həsr olunmuş görüş keçirilib.*** Görüşdə BDU-nun tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov, Geologiya və Geofizika İnstitutunun direktoru akademik Akif Əlizadə, həmin İnstitutun Yer fizikası seksiyasının rəhbəri akademik Fəxrəddin Qədirov, BDU-nun Geologiya fakültəsinin dekan müavini Ruslan Şəmiyev və filialın əməkdaşları iştirak ediblər.

Görüşdə yeni tədris ilində filialın fəaliyyəti, filialda tədris prosesinin, tələbələrin istehsalat təcrübəsinin təşkili müzakirə olunub. Fərda İmanov Universitetdə təhsil sahəsində həyata kerilən islahatlar, tədris prosesində tətbiq edilən yeni interaktiv təlim texnologiyaları haqqında məlumat verib.

Akademik Akif Əlizadə tədris-elm-istehsalat əlaqələrinin inkişaf etdirilməsində filialın əhəmiyyətli rol oynadığını bildirib. Akademik Fəxrəddin Qədirov bakalavr və magistrantların dərs və istehsalat təcrübələri üçün yaradılmış şərait haqqında məlumat verib.

Sonra tədris otağına və seysmoloji müşahidələri yerinə yetirmək üçün cihazların yerləşdirildiyi laboratoriyalara baxış keçirilib.

# Yay semestrinin imtahan sessiyası BLACKBOARD platforması ilə həyata keçirilir



***Bakı Dövlət Universitetində bakalavriat və magistratura səviyyələri üzrə 2020/2021-ci tədris ilinin yay semestrinin dərsləri Blackboard – elektron tədris platforması üzərindən uğurla həyata keçirilmişdir. 6 həftə ərzində təşkil edilən yay semestri 7 sentyabr tarixindən başlayaraq üç gün müddətində davam edən imtahanlarla yekunlaşacaq. İmtahanlar hazırda Blackboard – elektron tədris platforması üzərindən uğurla davam edir.***

Platformanın imkanlarından istifadə edilərək 170 fənn üzrə tələbələrin bilik və bacarıqları yoxlanılır və qiymətləndirmə aparılır. Qiymətləndirmə prosesi gün ərzində tələbələrin şəxsi kabinetlərində əks olunur. İmtahanlar BDU-da formalaşdırılan "Blackboard Team" tərəfindən izlənilir, texniki çətinliklə üzləşən tələbələrin gün ərzində platforma vasitəsilə imtahanlara qoşulması təmin edilir. Eyni zamanda BDU-da 2021/2022-ci tədris ilində Blackboard platformasının imkanlarından istifadə edilməsi, tədris prosesinin təkmilləşdirilməsi, daha effektiv şəkildə idarə olunması məqsədilə işlər intensiv şəkildə davam etdirilir.

# BDU və Satbayev adına Qazax Milli Tədqiqat Texniki Universiteti arasında ikili diplom proqramı imzalanıb

*Bakı Dövlət Universiteti və Satbayev adına Qazax Milli Tədqiqat Texniki Universiteti arasında Neft kimyası ixtisaslaşması üzrə magistratura səviyyəsində ikili diplom proqramına dair əməkdaşlıq müqaviləsi imzalanıb.*

102 yaşını qeyd edən Bakı Dövlət Universitetində tədrisin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq standartlara uyğunlaşdırılması və Universitetin beynəlxalq rəqabətliliyinin artırılmasına xüsusi diqqət yetirilir. Dünyanın bir sıra qabaqcıl universitetləri ilə beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsi istiqamətində davamlı işlər görülür.

Reallaşan layihələrdən biri də BDU və QMTTU arasında BDU-nun Kimya fakültəsi və QMTTU-nun Kimya və Bioloji Texnologiyalar İnstitutunun magistratura proqramı bazasında "Neft kimyası" ixtisaslaşması üzrə magistratura səviyyəsində birgə ikili diplom proqramıdır.

Layihənin məqsədi neft-qaz kimyası, yanacaqlar, təbii karbohidrogen ehtiyatları əsasında texniki əhəmiyyətli maddələrin alınması sahəsində hərtərəfli biliyi olan, müasir düşüncəyə sahib, problemlərin həllini bilən, eləcə də onları real olaraq tətbiq etmək bacarığına malik mütəxəssislərin hazırlanmasıdır. İkili diplom layihəsində təhsil alanlar neft kimyası, kimya mühəndisliyi elmlərinin fundamental və tətbiqi metodlarından istifadə edərək öz peşə fəaliyyətlərində praktik problemləri təsnif etmək, onları effektiv həll etmək bacarıqları əldə edəcəklər.

Qeyd edək ki, QMTTU-da neft kimyası və kimya mühəndisliyi sahəsində yüksək səviyyədə bakalavr, magistr və doktorant hazırlığı həyata keçirilir. Universitet QS dünya universitetləri reytinqində 501-510-cu, QS ECCA reytinqində isə 69-cu pillədə yer alır. Universitetdə 114 tədris və tədqiqat laboratoriyası fəaliyyət göstərir. Satbayev Universiteti dünyanın 174 aparıcı ali təhsil müəssisəsi və 450 nüfuzlu şirkəti ilə əməkdaşlıq edir.

# "Conversation club"-da dil təlimləri davam edir

Tələbə Gənclər Təşkilatının nəzdində fəaliyyət göstərən "Conversation club"un alman dili üzrə növbəti təlimi keçirilib. Təlimçi Filologiya fakültəsinin IV kurs tələbəsi Murad Məmmədov alman dilinin leksik, fonetik və qrammatik xüsusiyyətləri və alman dilinin lüğət tərkibi haqqında təlim iştirakçılarına məlumat verilib. Daha sonra təlimçi tələbələrin mövzu ilə bağlı suallarını cavablandırıb.

Qeyd edək ki, təlimlər həftədə iki dəfə olmaqla müxtəlif dillər üzrə davamlı şəkildə həyata keçirilir.

# BDU alimlərinin məqalələri nüfuzlu jurnallarda dərc edilib

*Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar ETL-nin əməkdaşları Jiseok Kim, Orxan Güləhmədov və Mustafa Muradovun "Triboelektrik təbəqələrə mikro- və nanoquruluşların nüfuz etdirilməsi ilə triboelektrik generatorlarının effektivliyinin artırılması" ("Enhancement of performance of triboelectric generators by introduction of micro- and nano- structures on triboelectric films") adlı icmal məqaləsi "Web of Science" beynəlxalq elmetrik bazasına daxil olan yüksək impakt faktorlu "Journal of Materials Science: Materials in Electronics" (İF: 2.478 (2020)) jurnalında dərc olunub.*

Məqalədə triboelektrik generatorlarda istifadə olunan təbəqələr üzərində mikro- və nanoquruluşların yaradılmasının onun çıxış parametrlərinə təsiri araşdırılıb, triboelektrik təbəqələrə belə quruluşların nüfuz etdirilməsi nəticəsində səthlərdə yaranan yüklərin sayının dəyişməsinin qanunauyğunluğu müəyyən olunub. Həmçinin belə qurğuların çıxış gücünün bu quruluşların forması və ölçüsündən asılılığı öyrənilib.

***

*Şərqşünaslıq təkültəsinin Türk filologiyası kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Nurlanə Mustafayevanın* "Azərbaycan-Türkiyə ədəbi əlaqələri: sovet dövründən müstəqilliyə" (Azerbaijan-Turkey Literary Relations: From the Soviet Era to Independent) adlı məqaləsi Braziliyada nəşr edilən və Veb of Science bazasına daxil olan "Laplage em Revista (International)" jurnalının (ISSN: 2446-6220-Brazil-WoS) 2021-ci ilin avqust ayında çapdan çıxmış 7-ci sayında ( vol.7, n. Extra E, Aug. 2021, p.24-31) dərc edilib.




***

*Kimya fakültəsinin əməkdaşları dosent Fərid Nağıyev, dosent Əli Xəlilov və professor İbrahim Məmmədovun həmmüəllifləri olduqları* "(Z)-2-amino-4-(2,6-dixlorofenil)-5-(1-hidroksietilidene)-6-okso-1-fe--nil-1,4,5,6-tetrahidropiridin-3-karbonitrilin kristal quruluşu və Hirşfeld səth analizi" ("Crystal structure and Hirshfeld surface analysis of (Z)-2-amino-4-(2,6-dichlorophenyl)-5-(1-hydroxyethylidene)-6-oxo-1-phenyl-1,4,5,6-tetrahydropyridine-3-carbonitrile") adlı məqalə Web of Science və SCOPUS bazalarında indekslənən "Acta Crystallographica Section E - Crystallographic Communications" jurnalında (E77, səhifələr 930-934, 2021) dərc edilib

Təqdim edilən məqalədə (Z)-2-amino-4-(2,6-dixlorofenil)-5-(1-hidroksietilidene)-6-okso-1-fe--nil-1,4,5,6-tetrahidropiridin-3-karbonitrilin kristal quruluşu və Hirşfeld səth analizi həyata keçirilib. Müəyyən olunub ki, quruluş molekuldaxili O—H rabitələrinin hesabına stabilləşir. Mərkəzi piridin halqası demək olar ki, planar quruluşdadır (maksimum kənara çıxma 0.074 (3) A° təşkil edir). Piridin halqası fenil və dixlorofenil halqaları ilə, müvafiq olaraq, 86.10 (15) və 87.17 (14)0 dihedral bucaqlar əmələ gətirir. Bu aromatik halqalar isə bir-birinə nəzərən fəzada 21.28 (15)0 bucaq altında yerləşir. Strukturda olan $C(—OH)CH_3$ qrupu koplanardır. Kristal qəfəsdə molekullar arası N—HN və C—HN, həmçinin, H və C—H qarşılıqlı təsirlərinin hesabına üçölçülü şəbəkə formalaşır.

***

*Kimya fakültəsinin əməkdaşları dosent Fuad Kərimli, professor Teymur İlyaslı, professor Sabit Məmmədov, elmi işçi Nərgiz Əhmədova, elmi işçi Natəvan Mahmudova və professor Eldar Əhmədovun* "Toluolun disproporsionlaşma reaksiyasında $Ce_xMg_{1-x}Al_2O_4$ nanotorları ilə modifikasiya olunmuş ZSM-5 növlü seolitlərin xassələrinin tədqiqi" (Evaluation of the properties of ZSM-5 type zeolites modified with $Ce_xMg_{1-x}Al_2O_4$ nanopowders in the toluene disproportionation reaction) adlı məqaləsi Web of Science və SCOPUS bazalarında indekslənən "Petroleum Chemistry" jurnalında (Petroleum Chemistry, v.61 (8), 2021) dərc edilib.

***

*Biofizika və biokimya kafedrasının müdiri, professor Rövşən Xəlilovun* Türkiyənin Mardin Artüklü Universitetinin professoru Cumalı Keskin və digər tanınmış alimlərlə birgə həmmüəllifi olduğu "Ənginar bitkisinin (Cynara Scolymus L.) tullantı hissələrindən istifadə olunmaqla gümüş nanohissəciklərin ekoloji / sürətli sintezi və onların sitotoksik və antibakterial fəallıqlarının qiymətləndirilməsi" ("Ecofriendly/Rapid Synthesis of Silver Nanoparticles Using Extract of Waste Parts of Artichoke (Cynara scolymus L.) and Evaluation of their Cytotoxic and Antibacterial Activities") Web of Science bazasına daxil olan Journal of Nanomaterials (İF: 2.986) jurnalında dərc olunub ("Journal of Nanomaterials", Volume 2021 | Article ID 2270472 |).

Məqalədə, gümüş nanohissəciklərin ekoloji cəhətdən təmiz olan bioloji üsulla ənginar bitkisinin (Cynara Scolymus L.) istehsal üçün yararsız olan tullantı hissələrindən istifadə olunmaqla sintezindən bəhs edilir. Alınan nanohissəciklərin xüsusiyyəti müxtəlif metodlarla (UV-spektrofotometer, XRD analiz, SEM, TEM, FTIR) araşdırılmışdır. Müəyyən edilmişdir ki, nanohissəciklər 28.78 nm ölçüdə olub, sferik formaya malikdir. Nanohissəciklərin zeta potensialının 16.9 mV və fundamental udma sərhəddinin spektrin 458.8 nm dalğa uzunluğunda olduğu müəyyən edilmişdir. Məqalədə həmçinin, sintez olunmuş gümüş nanohissəciklərinin antibakterial və sitotoksik təsirləri də araşdırılmışdır.

# BDU-nun professoru "NUCLEUS-2021" beynəlxalq konfransında iştirak edib

*Sentyabrın 21-də Rusiyanın Sankt-Peterburq şəhərində 71-ci "NUCLEUS-2021" Beynəlxalq Konfransı keçirilib. Konfransda Bakı Dövlət Universitetini Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru, professor Mais Süleymanov təmsil edib.* Mərkəz direktoru konfransda "Böyük Adron Kollayderinin enerjilərində müşahidə olunan pT oblastlarının xassələrinin enerji və kütlədən asılılığı" mühazirəsi ilə çıxış edib.

Çıxışdan sonra professor M.Süleymanov konfrans iştirakçılarının suallarını cavablandırıb.

Qeyd edək ki, beynəlxalq konfrans sentyabrın 25-nə qədər davam edəcək.

# BDU-nun dosentinin yeni dərs vəsaiti nəşr olunub

*Kitabxanaçılıq-informasiya fakültəsinin Biblioqrafiyaşünaslıq kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Sima İsmayılovanın yeni dərs vəsaiti nəşr olunub.*

"Sahəvi biblioqrafiya (ədəbiyyatşünaslıq və incəsənət üzrə)" adlı kitabın elmi redaktoru Biblioqrafiyaşünaslıq kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nadir İsmayılov, rəyçiləri isə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə elmlər doktoru, professor Almaz Ülvi və Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Knyaz Aslandır.




Dərs vəsaitində sahəvi biblioqafiyanın spesifik xüsusiyyətləri, sosial funksiyaları, təşkilati-funksional quruluşu, məzmun hüdudları və digər nəzəri problemlər şərh edilib. Kitabda informasiyalaşdırılmış cəmiyyətdə sahəvi biblioqrafiyanın yeri və rolu, cəmiyyət üzvlərinin, sahə mütəxəssislərinin biblioqrafik informasiya təminatındakı əhəmiyyəti faktiki mənbələrə əsaslanaraq təhlil olunub.

Dərs vəsaiti müvafiq ixtisas üzrə təhsil alan tələbələr, gənc tədqiqatçılar və sahə mütəxəssisləri üçün nəzərdə tutulub.

# SARS-CoV-2 virusuna qarşı hazırlanmış vaksinlərin strukturu, mexanizmləri və səmərəliliyinə dair məqalə dərc edilib

*Mikrobiologiya və Virusologiya elmi-tədqiqat laboratoriyasının müdiri, professor Xudaverdi Qənbərovun həmmüəllif olduğu elmi məqalə Web of Science Clarivate Analitics elmmetrik beynəlxalq bazasına daxil olan yüksək impakt faktorlu jurnalda dərc olunub.*

SARS-CoV-2 (COVID-19) vaccines structure, mechanisms and effectiveness: A review (SARS-CoV-2 virusuna qarşı hazırlanmış vaksinlərin strukturu, mexanizmləri və səmərəliyi: icmal) adlı icmal məqalə İmpakt faktoru 6.953 (Q1 kvartil) olan International Journal of Biological Macromolecules (2021,188, P.740-750) jurnalında çap olunub.

Dünya iki ilə yaxındır ki, COVID -19 virusunun yüksək ölümlə nəticələnən fəsadlarından əziyyət çəkir. Virusun yayılmasını minimuma endirmək üçün təklif olunan profilaktik tədbirlərlə yanaşı, xəstəliyin qarşısını almaq üçün müxtəlif vaksinlərin hazırlanması istiqamətində çoxtərəfli səylər göstərilir. Hazırda bir neçə vaksinin hazırlanması başa çatmış, onların təhlükəsizliyi və səmərəliyi ilkin olaraq göstərilmişdir. Moderna, NIAID, BioNTech və Pfizir vaksinlərinin kliniki sınaqları, onların yüksək təhlükəsizliyini və səmərəliliyini müəyyən etmişdir. Məqalədə mövcud COVID - 19 vaksinlərinin quruluşu, mexanizmləri və səmərəliyi müqayisəli şəkildə analiz edilmişdir.

# BDU-nun Türkiyənin Sivas Cumhuriyyət Universitetində təhsil almış tələbələri öz təcrübələrini bölüşür

***Dünyanın müxtəlif nüfuzlu universitetləri ilə ikili diplom, əməkdaşlıq müqavilələri və mübadilə proqramları imzalayan Bakı Dövlət Universitetində yeni layihəyə start verilib. Layihənin əsas məqsədi təhsillərini xaricdə davam etdirən BDU tələbələrini ictimaiyyətə tanıtmaq və onların xaricdə qazandıqları təhsil təcrübələrini oxucularla bölüşməkdir.***

*İlk müsahiblərimiz BDU-nun SABAH qrupları Psixologiya ixtisasında təhsil alan IV kurs tələbələri Aydan Heydərli və Nərmin Murtuzzadədir. Onlar "Erasmus+" mübadilə proqramı çərçivəsində 2020/2021-ci tədris ilinin II semestri ərzində Türkiyənin Sivas Cumhuriyyət Universitetinin Psixologiya fakültəsində təhsil alıblar.*

***-"Erasmus+" mübadilə proqramına müraciət edən zaman hansı mərhələlərdən keçməli oldunuz?***

***Aydan Heydərli:*** "BDU-nun Sosial elmlər və psixologiya fakültəsinə qəbul olduğum vaxtdan Erasmus+ mübadilə proqramı haqqında məlumatım var idi. İkinci kursun sonlarında qrup yoldaşım Nərminlə bu proqrama müraciət etməyə qərar verdik. Öncə BDU-nun Beynəlxalq əlaqələr şöbəsinə müraciət etdik. Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları Erasmus+ proqramı çərçivəsində BDU-nun əməkdaşlıq müqaviləsi olan universitetlərlə bizi tanış etdilər. Müvafiq sənədləri şöbəyə təqdim etdikdən sonra bizi qarşıda müsahibə mərhələsi gözləyirdi. Müsahibədən uğurla keçdikdən sonra Sivas Cumhuriyyət Universitetindən müraciətimizin müsbət dəyərləndirildiyi barədə təsdiq məktubu aldıq".

***Nərmin Murtuzzadə:*** "Əvvəlcə onu qeyd edim ki, Erasmus+ proqramı universitetimizin biz tələbələrə yaratdığı önəmli fürsətlərdən biridir. Bu proqram vasitəsilə hər bir BDU tələbəsi xaricdə təhsil alma fürsəti əldə etmiş olur. Universitetimizin internet səhifəsində BDU-nun əməkdaşlıq etdiyi bütün universitetlər barədə hər kəs rahatlıqla məlumat ala bilər. Biz də universitetlərin siyahısı ilə BDU-nun internet səhifəsində tanış olmuşduq.

**- Sivas Cumhuriyyət Universitetində tədris prosesi ilə bağlı hansı fərqli məqamlarla rastlaşdınız?**

***Aydan Heydərli:*** "Hər bir ölkənin özünəməxsus təhsil sistemi var. Bu özünəməxsusluq hətta ölkələrin daxilində universitetdən-universitetə dəyişir. Sivas Cumhuriyyət Universitetində təhsil aldığımız müddət ərzində bir çox fərqli məqamlarla rastlaşdıq. Ümumiyyətlə, bu universitetdə dərslər demək olar ki, mühazirə ağırlıqlı keçirilir. Orada BDU-dan fərqli olaraq, seminar və kollokvium kimi dərs saatları yoxdur. Tələbələr semestr boyunca sadəcə 2 dəfə imtahan verməli olur. Bu imtahanlardan biri semestrin ortasında, ikincisi isə semestrin sonunda təşkil olunur. Bizim orada olduğumuz müddətdə pandemiya ilə əlaqədar dərslər onlayn şəkildə keçirilirdi. Buna görə də, təəssüf ki, əyani təhsilin imkanlarından yararlanmaq fürsətimiz olmadı".

***Nərmin Murtuzzadə:*** "Mənim fikrimcə, Sivas Cumhuriyyət Universitetində təhsilin keyfiyyəti BDU ilə paralellik təşkil edir. Çünki BDU daim inkişafda olan və beynəlxalq təcrübəni özündə tətbiq etməyə meyilli tədris ocağıdır. Təbii ki, dərslərin keçirilmə prosesində bəzi fərqlər var idi. Bunlara seminarların olmamasını, imtahanların test üsulu ilə keçirilməsini örnək göstərə bilərəm".

***- Azərbaycanlı olduğunuzu biləndə müəllimlərin və tələbələrin sizə reaksiyası necə olurdu?***

***Aydan Heydərli:*** "Əvvəldə də qeyd etdiyim kimi, dərslər onlayn formada keçirilirdi. Bu zaman müəllimlər dərsə qatılan tələbələrin qeydiyyatını aparırdı. Bizdə olduğu kimi, Türkiyə təhsil sistemində də dərslərin müəyyən qismində iştirak etmək məcburiyyəti var. Müəllimlər əsasən soyadlarımızın sonluğundan xarici ölkə vətəndaşı olduğumuzu anlayırdılar. Bu da onların diqqətini çəkirdi. Demək olar ki, bütün müəllimlərdən "Haradan gəlmisiniz?" sualını eşitmişik. Onlar bizim azərbaycanlı olduğumuzu biləndə ölkəmiz haqqında yalnız xoş sözlər deyirdilər. Aralarında Azərbaycana nə vaxtsa gələn olubsa, bu barədə təəssüratlarını bizimlə bölüşürdü. Ümumiyyətlə, Türkiyədə yaşayan insanlar çox qonaqpərvərdir. Buna görə də bütün müəllimlərdən və tələbələrdən özümüzə qarşı yalnızca dost münasibəti görürdük. Təbii ki, azərbaycanlı olduğumuz üçün onların bizə qarşı diqqəti və qayğısı digər ölkə tələbələri ilə müqayisədə fərqli idi. Erasmus+ proqramı ilə oxuyan digər tələbələr də bizim dilimiz, mədəniyyətimiz, ümumiyyətlə, ölkəmiz haqqında məlumatları böyük maraqla dinləyirdilər. İnteraktiv söhbətlərimiz zamanı biz onlara mütləq şəkildə Qarabağ müharibəsindən danışırdıq. Onları Azərbaycanın tarixi həqiqətləri ilə tanış edirdik. Ölkəmiz və Qarabağ uğrunda mübarizəmiz onları o qədər həyəcanlandırmışdı ki, yolda Azərbaycan bayrağı görəndə, ya da sosial şəbəkədə Azərbaycanla bağlı hər hansı bir məlumatla qarşılaşanda dərhal bizə məlumat verirdilər".

***Nərmin Murtuzzadə:*** "Bizə qarşı münasibət o qədər xoş idi ki, Türkiyədə olduğumuz 5 ay boyunca heç bir halda özümüzü yad hiss etmədik. Sanki öz doğma vətənimizdə idik. Bizim Azərbaycandan gəldiyimizi biləndə ölkəmizi və insanlarını nə qədər çox sevdiklərini dilə gətirirdilər. Küçələrdə Türkiyə bayraqları ilə yanaşı, Azərbaycan bayraqlarını da görmək bizi qürurlandırırdı".

***- İmtahan nəticələrinizdən razı qaldınızmı?***

***Aydan Heydərli:*** "Düşünürəm ki, imtahan nəticələrimiz mübadilə proqramı tələbəsinin nəticələrinə görə kifayət qədər yaxşı idi. Cəmi 7 fəndən imtahan verdik və hamısını uğurla tamamladıq".

***Nərmin Murtuzzadə:*** "Türkiyədə təhsil aldığımız müddətdə hər zaman ölkəmizi və universitetimizi yaxşı təmsil etməyə çalışmışıq. Buna görə də imtahanlara xüsusi diqqətlə hazırlaşırdıq. İmtahanlar onlayn formada test üsulu ilə keçirildi və hər birindən uğurlu nəticələr əldə etdik. Beləliklə, Sivas Cümhuriyyət Universitetindəki təhsil həyatımızı uğurla başa vurmuş olduq".

***- "Erasmus+" mübadilə proqramı yalnız təhsil yox, həm də yeni insanlar tanımaq və yeni dünya kəşf etmək üçün əvəzolunmaz fürsətdir. Siz bu fürsəti necə dəyərləndirdiniz?***

***Aydan Heydərli:*** "Pandemiya səbəbindən universitetin auditoriyalarında əyani dərs ala bilməsək də, Türkiyənin bir çox şəhərinə səyahət etmə fürsətimiz oldu. Sivas Cumhuriyyət Universitetinə Erasmus+ proqramı çərçivəsində Serbiya, Bosniya və Hersaqovina, Monteneqro, Rumıniya və İsveç kimi ölkələrdən tələbələr gəlmişdi. 5 ay ərzində onlarla birlikdə Türkiyənin təxminən 15 şəhərini qarış-qarış gəzdik. Digər günlərdə isə tələbə dostlarımızla universitet kampusunda çox maraqlı vaxt keçirirdik – idman stadionunda oyunlar oynayır, hava şəraiti yaxşı olduqda kamp edirdik. Sivas şəhəri dağlarla əhatə olunub. Hərdən dağlara piyada qalxmaq ən sevdiyimiz məşğuliyyətlərdən birinə çevrilmişdi".

***Nərmin Murtuzzadə:*** "Erasmus+ mübadilə proqramının ən gözəl tərəfi yeni mühit görüb, yeni insanlar tanımaqdır. Biz də Avropanın müxtəlif ölkələrindən olan insanlarla tanış olduq və onlarla qarşılıqlı fikir mübadiləsi apardıq. Qarşılıqlı şəkildə dövlətlərimizin adət-ənənələri və özünəməxsus mədəniyyəti ilə tanış etməyə çalışdıq. Bu fürsəti bizə yaratdığı üçün BDU-nun rəhbərliyinə və bu yolda bizə dəstək olan hər bir BDU əməkdaşına dərin təşəkkürümü bildirirəm".

***Müsahibəni hazırladı:***
***Nərminə Əsədova***

# BDU-nun EcoPrint layihəsi Kopenhagendə keçiriləcək Böyük Finalda Azərbaycanı təmsil edəcək

***BDU tələbələrinin ENACTUS komandası tərəfindən hazırlanan EcoPrint layihəsi EASA-nın ("Euro-Asian Startup Awards") regional qalibi olaraq 16-17 noyabr 2021-ci il tarixlərində Danimarkanın paytaxtı Kopenhagendə keçiriləcək GSA-nın ("Global Startup Awards") Böyük Finalında iştirak hüququ qazanıb. Bu layihə ilk dəfə 2019-cu ildə "The Best Social Impact" kateqoriyasında ölkə finalisti olmuş, 2020-ci ildə "The Best Virtual Teamwork Solution" kateqoriyasında Azərbaycan üzrə, 2021-ci ilin 8 fevral tarixində isə regional finalda eyni kateqoriya üzrə mübarizə aparan Ermənistan komandasını məğlub edərək region üzrə qalib olub.***

Əsas məqsədi yaşıllıqları və ağacları qorumaq olan EcoPrint layihəsi Azərbaycanda ekoloji, sosial və iqtisadi inkişafa dəstək olmaq missiyasını özündə birləşdirir. EcoPrint əhalinin sosial həssas qrupuna daxil olan insanlarla müqavilə əsasında sövdələşmələr edərək onları internet səhifəsi *(ecoprint.deirvlon.com)* üzərindən Avstraliya, Çin, Almaniya, Kanada kimi müxtəlif ölkələrdən Azərbaycanda ekoloji mühitin bərpasına və qorunmasına öz töhfəsini vermək istəyən şəxslərlə görüşdürür, Azərbaycanın istənilən regionunda ağacəkmə prosesini həyata keçirir. Beləliklə, EcoPrint layihəsi Azərbaycanda sosial, iqtisadi və ekoloji vəziyyətə dəstək vermiş olur və bununla BMT-nin dayanıqlı inkişafa dair 17 məqsədindən 8-ni tam əhatə edir.




Bu uğuru ilə yanaşı EcoPrint layihəsi fəaliyyətə başladığı gündən bir çox beynəlxalq və yerli müsabiqələrdə, o cümlədən 2019-cu ildə "Hult Prize Azərbaycan" yarışının qalibi olaraq Türkiyə Respublikasında və 2020-ci ildə Beynəlxalq ENACTUS yarışının Azərbaycan üzrə qalibi olaraq Niderland krallığında Azərbaycanı təmsil edib. Bundan başqa 2020-ci il 13 mart tarixində Bakıda keçirilən, əsas istiqaməti ekoloji mühitin bərpasına həsr olunan mövzuları əhatə edən "Qlobal Mühəndislik Simpoziumu"na (GES) rəsmi tərəfdaş olub.

Qeyd edək ki, "Global Startup Awards" (GSA) təşkilatı 2012-ci ildə Danimarkada yaradılıb və hazırda 4 qitədə 113-dən çox ölkədə fəaliyyət göstərir və dünyanın müxtəlif regionlarından olan komandalar tərəfindən ərsəyə gətirilən startapları mükafatlandıran və onları bir araya gətirən qurumdur. Bu platforma çərçivəsində startaplar bir-biri ilə əlaqə qurur, şəbəkələşir, müxtəlif investorlarla görüşür və mükafatlandırılır. Azərbaycan GSA-nın "Euro-Asian Startup Awards (EASA)" adlanan və 10 ölkədən ibarət olan (Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Belarus, Gürcüstan, Moldova, Ukrayna, Rusiya, Ermənistan) startaplar qrupuna daxil edilib və bu qrupda hər il müxtəlif kateqoriyalarda yarışlara qatılır.

# Yeni tədris iliniz mübarək!

## 29 sentyabr BDU-nun 24000 tələbəsi, 1500 nəfərlik professor-müəllim heyəti yeni tədris ilinə başladı.

***Azərbaycan ali məktəblərinin flaqmanı, şərəfli keçmişə, zəngin təcrübəyə malik Bakı Dövlət Universiteti mövcud təcrübə və ənənələri daha da möhkəmləndirmək, ölkənin peşəkar kadr və elmi potensialını zənginləşdirmək məramı ilə yeni dərs ilinə qədəm qoyur.*** Təəssüflər olsun ki, il yarım qədər bir müddət ərzində COVID-19 pandemiyası səbəbindən professor-müəllim heyətini və tələbələrimizi Universitet auditoriyalarında deyil, monitor qarşısından salamlamalı olsaq da, bu çətin günləri geridə qoymaq üzrəyik.

Bu gün BDU 16 fakültəsi, 120 kafedrası, 2 elmi-tədqiqat institutu, 3 elmi-tədqiqat mərkəzi, ən müasir avadanlıqlarla təchiz olunmuş elmi-tədqiqat və tədris laboratoriyaları, Qazax filialı, İqtisadiyyat və Humanitar Kolleci, "Gənc istedadlar" liseyi və s. ilə ölkəmizdə elm və təhsilin inkişafında mühüm rol oynayır. Biz yeni tədris ilində tələbələrimizin qarşısına bir sıra yeniliklərlə gəlmişik. BDU-da tədrisin təkmilləşdirilməsi, müasir standartlara uyğunlaşdırılması, dövrün tələblərinə uyğun kadrların hazırlanması istiqamətində aparılan fəaliyyətin tərkib hissəsi olaraq, 2021/2022-ci tədris ili üçün bakalavriat və magistratura səviyyələri üzrə yeni ixtisas və ixtisaslaşmalar açılıb. Yeni ixtisasların yaradılması həm də əmək bazarında bu ixtisaslara olan tələbatın ödənilməsi zərurətindən yaranıb. Bundan əlavə, Universitetin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm işlər görülüb, müasir tələblərə cavab verən, bütün zəruri avadanlıqlarla təchiz olunmuş yeni Tələbə Evi tam istifadəyə verilib.

Universitetin beynəlxalq layihələrdə iştirakı, beynəlxalq əlaqələrinin möhkəmləndirilməsi, ikili diplom proqramlarının miqyasının genişləndirilməsi yönündə bir sıra xarici ali təhsil müəsisələri ilə danışıqlar aparılıb, birgə layihələrin həyata keçirilməsi istiqamətində hazırlıq işlərinə başlanılıb. BDU hazırda dünyanın nüfuzlu 7 universiteti ilə ikili diplom proqramları həyata keçirir.

Hazırda tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində mühüm addımlar atılır. ABŞ-ın məşhur "BLACKBOARD" tədrisin idarə edilməsi sisteminin tətbiqi ilə tədris prosesinin təşkili və idarəolunmasını təkmilləşdirilir. Təhsilin keyfiyyətinin yüksəldilməsi, elmin sənayeyə tətbiqi, tələbələrin öz nəzəri biliklərini təcrübədə tətbiq etmə imkanının yaradılması üçün əməli tədbirlər görülür.

Bütün bunlar yeni tədris ilində tələbələrimizin peşəkar mütəxəssislər kimi yetişməsində, elmin sirlərinə dərindən yiyələnməsində mühüm rol oynayacaqdır.

*Hörmətli müəllimlər, əziz tələbələr, yeni tədris ilində sizə uğurlar arzulayırıq!*

# BDU TƏLƏBƏLƏRİ ƏYANİ TƏHSİLİN BƏRPASI QƏRARINI SEVİNCLƏ QARŞILAYIR



***Artıq bir ildən çoxdur ki, təhsil müəssisələrində tədris prosesi məsafədən (onlayn) həyata keçirilirdi. Tədrisin məsafədən təşkili həm müəllimlər, həm də tələbələr üçün bir sıra çətinliklərlə müşayiət olunsa da, Bakı Dövlət Universitetində onlayn dərslər mütəşəkkil təşkil olundu.*** Qısa müddət ərzində "Microsoft Teams" platforması üzərindən təşkil edilən onlayn dərslərə tələbələr həvəslə qoşuldu, professor-müəllim heyəti tədrisin fasiləsizliyini təmin etmək üçün bütün səylərini göstərdi. BDU-da məşhur "Blackboard" təhsil siteminin tətbiqi ilə onlayn dərslərin daha mükəmməl şəkildə təşkilinə nail olundu. Lakin bütün bunlara baxmayaraq, tədrisin məsafədən təşkili ənənəvi təhsili, təbii ki, əvəz edə bilməz. Buna görə də yeni tədris ilində ənənəvi təhsilin bərpası ilə bağlı qərar həm professor-müəllim heyətinin, həm də tələbələrin böyük sevincinə səbəb oldu.

***Ənənəvi təhsilin bərpası barədə tələbələrimizin təəssüratlarını öyrəndik:***

***Kitabxanaçılıq-informasiya fakültəsinin I kurs magistrantı Lamiyə Əliyeva:*** "Bu il BDU-da oxuduğum ixtisasın magistr pilləsində təhsilimi əyani şəkildə davam etdirəcəyəm. Yeni tədris ilinə əyani şəkildə başlamağı səbirsizliklə gözləyirəm. Düzdür, müəllimlərimiz təhsilimizi onlayn şəkildə davam etdirməyimiz üçün əllərindən gələni etdilər, ancaq onlayn dərslər heç bir halda əyani təhsili əvəz edə bilməz. Ənənəvi tədrisin bərpa olunması ilə bağlı qərar məni bir tələbə kimi çox sevindirdi. Tələbə və müəllim kollektivini universitetimizdə yenidən görmək çox gözəl olacaq. Amma əyani təhsilimizi davam etdirməyimiz üçün hər birimizin peyvənd olunmağımız zəruridir. Bütün tələbələr peyvənd olunmalıdır ki, normal tədris prosesinin davamlılığını təmin edə bilək. Yeni tədris ilində və gələcək fəaliyyətlərində bütün tələbələrə yeni-yeni nailiyyətlər arzulayıram."

***Coğrafiya fakültəsinin II kurs tələbəsi Elvin Əhmədli:*** "BDU-ya 2020-ci ildə qəbul olundum. Universitetə qəbul olunan hər bir tələbə kimi mən də böyük auditoriyalarda dərs dinləmək, tələbə yoldaşlarımla müəyyən müzakirələr aparmaq, kitabxananın imkanlarından yararlanmaq istəyirdim. Əfsuslar olsun ki, məlum səbəbdən tədris prosesi onlayn formada davam etdirildi. Artıq yeni tədris ilindən əyani dərslərə geri qayıdırıq. Duyğularımı sözlərlə ifadə edə bilmirəm. Auditoriyalarda İlk dəfə olaraq dərs dinləyə biləcəyim üçün sevincimin həddi-hüdudu yoxdur.

Ümid edirəm ki, bu qərar ölkəmiz üçün xeyirli və davamlı olar. Bizim öhdəmizə düşən əsas vəzifə isə bu davamlılığı qorumaq məqsədilə peyvənd olunmaq və pandemiya şəraitində tətbiq edilən qərarlara ciddi əməl etməkdir. Artıq bizi daha aydın və sağlam günlər gözləyir. Bütün tələbələri əyani tədris ilinin başlanması münasibətilə səmimi qəlbdən təbrik edirəm".

***Biologiya fakültəsinin II kurs tələbəsi Fəridə Orucova:*** Birmənalı olaraq deyə bilərəm ki, onlayn təhsil ənənəvi təhsili əvəz edə bilməz. Onlayn təhsilin əsas problemlərindən biri internetin hər kəs üçün əlçatan olmaması və texniki vəsaitlərin çatışmazlığıdır. Bu problemlərə görə bəzi tələbələr dərslərdə davamlı iştirak edə bilmirdi. Buna görə də təhsildə müəyyən mənada geri qalırdılar. Buna görə də əyani tədrisin bərpası məni çox sevindirir. Əyani təhsilin bərpa olunmasına çox sevinsək də, qarşımızda duran əsas vəzifələrdən biri karantin rejiminin tələblərinə ciddi riayət etməkdir. Ən birinci vəzifəmiz peyvənd olunmaqdır. Eyni zamanda gigiyena qaydalarına, maska taxmağa və dezinfeksiyaedici məhlullardan istifadəyə davam etməliyik. Gələcəyin bioloqu olaraq bizlər də əyani tədris sayəsində bu cür virusların aradan qaldırılma yollarını öyrənməyə və tapmağa çalışacağıq.

***Tətbiqi riyaziyyat və kibernetika fakültəsi II kurs tələbəsi Əfsanə Ağasiyeva:*** "Təhsilin uzun müddət onlayn davam etməsi bütün tələbələr kimi məni də narahat edirdi. Çünki gələcəyin bir müəllimi kimi auditoriyalarda təhsil almağın gələcək fəaliyyətim üçün böyük rol oynadığını bilirəm. Mənim üçün əyani təhsilin əsas üstünlüyü ondadır ki, dərslərin keyfiyyəti daha yüksək olur və üzüzə ünsiyyət qurmaq bacarığı əyani dərslərdə formalaşır. İnanıram ki, əyani tədris prosesi davamlı olacaq."

***Mexanika-riyaziyyat fakültəsinin III kurs tələbəsi Nigar Kərimli:*** "Universitetlərdə ənənəvi tədrisin bərpası qərarına çox sevindim. İl yarım davam edən onlayn təhsildən sonra dərslərimizə yenidən auditoriyalarda davam edəcəyik. Hədəflərimi reallaşdıra biləcəyim mühitə geri qayıdırıq. Bu, hər kəsə bəlli bir faktdır ki, onlayn təhsil nə qədər keyfiyyətli təşkil olunsa da, ənənəvi təhsilin imkanlarını əvəz edə bilmir. Auditoriyalarda interaktiv dərs prosesi tələbələrin dərsi mənimsəməsində daha uğurlu nəticələr verir. Amma COVID-19 bəlasının hələ də bizimlə olması faktı dəyişməz olaraq qalır. Buna görə də pandemiya ilə mübarizə şərtlərinə tam əməl etmək hər birimizin ən əsas borcudur. Peyvənd olunmaq, sosial məsafəni qorumaq və dezinfeksiya qaydalarına ciddi şəkildə riayət etmək vacibdir. Yalnız bu şəkildə biz cəmiyyət olaraq virusa qalib gələ bilərik."

***Fizika fakültəsinin III kurs tələbəsi Səbinə Süleymanova:*** "İki ilə yaxın davam edən onlayn tədris prosesindəki müşahidələrimə əsasən deyə bilərəm ki, bu müddət heç kim üçün asan olmadı. İnternet bağlantısı və ya dərsə qoşulmaq üçün istifadə olunan texniki vasitələrin çatışmazlığı həm müəllim heyətini, həm də tələbələri müəyyən çətinliklərlə üz-üzə qoyur. Bu səbəblərdən dərslərdən geri qalan tələbə sayı az deyil. Vurğulamaq istədiyim bir digər məsələ isə tələbələrin onlayn dərslərə psixoloji baxımdan hazır olmamağı ilə bağlıdır. Çünki biz müəllimi parta arxasında dinləməyə, dərsə cavab vermək üçün lövhəyə çıxmağa, sual vermək üçün əl qaldırmağa, dərsə gecikib "qayıb" yazılmasın deyə cəld hərəkət etməyə alışmışıq. Bir sözlə, ənənəvi təhsilin bərpa olunmasına çox sevinirəm. Uzun fasilədən sonra yenidən doğma Universitetimin auditoriyalarında təhsil alacağımız üçün həqiqətən çox həyəcanlıyam və o günü səbirsizliklə gözləyirəm."

***Filologiya fakültəsinin IV kurs tələbəsi Bahar Haşimli:*** "2020-ci ilin mart ayında pandemiya səbəbilə Universitetlərdə bir həftəlik tətil elan olundu. Bu xəbəri ilk dəfə eşidəndə bir həftəlik istirahət kimi qəbul etmişdim. Çünki məsələnin ciddiliyindən hələ ki tam xəbərdar deyildim. Lakin bu həftələr uzanmağa başladı və təhsilimizi onlayn davam etdirməyimiz məni getdikcə daha çox məyus etməyə başladı. Nəhayət, əyani tədrisin bərpa olunma xəbərini eşitdim və çox sevincliyəm. Doğma Universitetimi, auditoriyaları, oxu zalını, müəllimlərimi və tələbə yoldaşlarımı yenidən görəcəyimi düşündükcə içimdə məktəbə ilk addımları atan uşaq sevinci doğur. Yeni dərs ilinin başlanmasını bütün tələbələr kimi mən də həyəcanla gözləyirəm."

***İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi***

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Allahverdi Məmmədli, Cahangir Məmmədli, Samir Mirzəyev

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.

**Çapa imzalanıb:** 30.09.2021

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08